RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 291 (8314) BAZAR, 29 dekabr 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# İlham Əliyev dayağımız, Mehriban xanım ümid çırağımızdır

"Yuxuda gördüm ki, yeni mənzilə köçmüşük, birdən qapı döyülür və Prezident evimizə qonaq gəlir. Səhər durub yuxumu evdəkilərə danışdım...
Allaha and olsun ki, heç üstündən bir həftə keçmədi yuxum çin çıxdı. Qapımız açıldı və İlham oğlumla, Fövqəladə Hallar naziri Kəmaləddin Heydərov içəri daxil oldu. Gözlərim yaşardı, özümü güclə saxladım. Qabağına gedib bağrıma basdım Prezidentimi. Halımı soruşub əllərimdən öpdü, sanki dünyanı mənə bağışladı...
Düzünü desəm, gözləmirdim... Bu, bizim üçün unudulmaz bir an oldu. Ölkə rəhbərinin evimizə gələrək mənzilin açarlarını təqdim etməsi, ailəmiz üçün ən böyük hədiyyə oldu. 75 yaşım var, indiyədək Prezidenti yalnız televizorda görmüşdüm. Amma onunla görüşüb söhbət edərkən elə bildim ki, çoxdan ailəmizin bir üzvüdür. Hələ də o günün xoş təəssüratındayam".

Fevralın 5-də Şamaxıda baş verən zəlzələnin ziyan vurduğu mənzillərdən biri də 75 yaşlı Xuraman Həsənovaya məxsus ev idi. Mənzilləri tam yararsız hala düşən Həsənovlar ailəsi müvəqqəti olaraq sığınacaqlarda yerləşdirilmişdi. Təbii fəlakətdən 10 ay sonra, dekabrın 5-də Prezident İlham Əliyev bu ailəyə tam təmirli, yeni mənzil hədiyyə etdi.

### "Bu, mənim üçün xoşbəxtlikdir"

Həsənovlar ailəsi, xüsusən də Xuraman nənə hələ də dövlət başçısının qəfil yeni evinə gəlməsinin, onu ziyarət etməsinin xoş təsiri altındadı. Şamaxıya səfərimiz zamanı Xuraman nənə ilə görüşümüzdə buna bir daha şahidlik etdik. Həqiqətən də üzü nurlu ağbirçək ananın sevincinin həddi-hüdudu yoxdur. Yeni mənzillərində xoşbəxt günlərini yaşamağa başlayan Xuraman nənə dövlət başçısı ilə görüşün xoş xatirələrini bizimlə də bölüşdü:

*"Bilirsən, oğlum, bu mənim üçün xoşbəxtlikdir. Çünki ölkənin rəhbəri təsadüfən 75 yaşlı Xuramanın evinə gəlir, çayını içir, dərdiylə, vəziyyətiylə maraqlanır, səmimi söhbət edir. Təsəvvür edin ki, zəlzələdən sonra ən ağır vəziyyətdə yaşayırdıq. Ev yox, eşik yox. Və qəfil Prezident Şamaxıya gəlir, insanlara təsəlli verərək deyir ki, narahat olmayın, tezliklə yeni mənzillər tikiləcək. Bu dövlət hər bir vətəndaşının qayğısına qalır, onu sahibsiz qoymur. Necə ki, qoymadı da...*

*Hörmətli Prezidentimə dedim ki, bir əhdim olub. Heç vaxt özümə heç nə arzu etməmişəm. Ancaq həyatda uşaqlar üçün nəsə arzulamışam. Bu evlər belə vəziyyətə düşəndə ancaq bir arzumu dilə gətirib dedim ki, ya Rəbbim, əgər mənə belə bir şey qismətdirsə, Prezidentlə görüşüm olsun. Həmin günü Allah mənə qismət etdi. Sevincimin həddi-hüdudu yoxdur".*

Beş övlad böyüdən Xuraman nənə deyir ki, Azərbaycan xalqı xoşbəxt xalqdır, ona görə ki, İlham Əliyev kimi səmimi, qayğıkeş, darda qalana hayan olan, kimsəsizə əl tutan, bayrağımızı ucaldan Prezidenti var. Hər kəs ən azından televiziya vasitəsi ilə görür ki, Prezident və xanımı, Birinci vitse-prezident Mehriban Əliyeva necə xeyirxah işlər görürlər, vətəndaşın qayğısına qalırlar. Prezidentimiz himayədarımız, qayğıkeşimiz, Mehriban xanım ümid çırağımızdır".

Ardı 2-ci səh.

## "Azərbaycan Respublikasının Dövlət Himnindən istifadə qaydaları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar əlavə tədbirlər və "Azərbaycan Respublikasının Dövlət Himnindən istifadə qaydaları haqqında" Azərbaycan Respublikasının 2019-cu il 19 fevral tarixli 1512-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 aprel tarixli 628 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Dövlət Himnindən istifadə qaydaları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "Azərbaycan Respublikasının Dövlət Himnindən istifadə qaydaları haqqında" Azərbaycan Respublikası Qanununun 7.1-ci maddəsində "orqanlar (qurumlar)" dedikdə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi və Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti nəzərdə tutulur;

1.2. həmin Qanunun 7.3-cü maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur.

2. "Azərbaycan Respublikasının Dövlət Himnindən istifadə qaydaları haqqında" Azərbaycan Respublikasının 2019-cu il 19 fevral tarixli 1512-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 aprel tarixli 628 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 4, maddə 628) 2-ci hissəsi aşağıdakı redaksiyada verilsin:

"2. Müəyyən edilsin ki:

2.1. "Azərbaycan Respublikasının Dövlət Himnindən istifadə qaydaları haqqında" Azərbaycan Respublikası Qanununun 7.1-ci və 7.3-cü maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

2.2. həmin Qanunun 7.3-cü maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

2.3. həmin Qanunun 7.1-ci maddəsində "orqanlar (qurumlar)" dedikdə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi və Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti nəzərdə tutulur.".

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan Respublikasının Dövlət Himnindən istifadə qaydaları haqqında" Azərbaycan Respublikası Qanununun 7.3-cü maddəsinə uyğun olaraq, xarici dövlətin ərazisində Azərbaycan Respublikasının keçirdiyi təntənəli tədbirlər zamanı Azərbaycan Respublikasının Dövlət Himninin ifa edilməsi qaydasını 3 ay müddətində müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

4. Azərbaycan Respublikasının Baş Prokurorluğuna tövsiyə edilsin ki, Azərbaycan Respublikasının Dövlət Himnini prokurorluq orqanları işçilərinin ifa etməsi, dinləməsi və oxuması qaydasını müəyyən etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 dekabr 2019-cu il*

## Xudat-Şahdağ dəmir yolu xəttinin layihələndirilməsi ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Ölkəmizdə turizmin inkişaf etdirilməsi, yeni turizm marşrutunun yaradılması məqsədilə Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Xudat-Şahdağ dəmir yolu xəttinin layihələndirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 yanvar tarixli 890 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində digər layihələr üzrə dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.2.6-cı yarımbəndində göstərilmiş məbləğin 3,0 (üç) milyon manatı "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 dekabr 2019-cu il*

## D.B.Tağıyevin "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycanda elmin inkişafında xidmətlərinə görə Dilqəm Bəbir oğlu Tağıyev "Şöhrət" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 dekabr 2019-cu il*

## Sosial müdafiənin gücləndirilməsinin əsas mənbəyi - iqtisadi inkişaf

Dünya ölkələrinin inkişaf tarixinə nəzər yetirdikdə görürük ki, onların əldə etdiyi nailiyyətlərin əsas səbəbi geniş islahatların aparılmasıdır. Xüsusilə inkişafdan geri qalan Asiya ölkələrinin timsalında biz bunu aydın görürük. İqtisadi cəhətdən inkişaf etməyən Cənubi Koreya, Sinqapur, Malayziya bu islahatların nəticəsində indi dünyanın inkişaf etmiş ölkələrindəndir. Azərbaycanda da həyata keçirilən islahatların məqsədi ölkənin hərtərəfli və sürətli inkişafına nail olmaqdır.

Prezident İlham Əliyev dekabrın 23-də yerli jurnalistlərə ilin yekunları ilə bağlı verdiyi geniş müsahibəsində ölkədə həyata keçirilən islahatlar barədə bildirmişdir: "Bütövlükdə deyə bilərəm ki, bizim siyasətimiz konseptual xarakter daşıyır və ardıcıllıqla icra edilir. Əgər son 16 il tarixinə geniş nəzər salsanız, görərsiniz ki, heç bir addım təsadüfi olmayıb. Hər bir addımın arxasında çox böyük təhlil və böyük məqsədlər dayanır. Beləliklə, kadr islahatları zamanında aparılır... Ümumiyyətlə, işə yanaşma tərzi dəyişir, Azərbaycan yeniləşir, Azərbaycanın yeni siması ortaya çıxır, iqtidarın yeni siması ortalığa çıxır - müasir dövrə uyğun, cəmiyyətimizin gözləntilərinə uyğun və bizim inkişaf strategiyamıza uyğun.

Ardı 4-cü səh.

**İlə yekun vurulur**

## Bol pambıq, xoş növraq, üz ağlığı

Bu günlər Tərtərdə yüksək əhvali-ruhiyyə, xoş ovqat yaşanır. Tərtərlilər torpağın hər qarışını halal zəhmətləri ilə əkib-becərir, ölkə iqtisadiyyatının inkişafına sanballı töhvələr verirlər.



Zaman da təsdiq edir ki, Prezident İlham Əliyevin müəyyən etdiyi sosial-iqtisadi inkişaf strategiyası ən doğru seçimdir. Dekabrın 19-da Prezidentin yanında pambıqçılıq mövsümünün yekunları və 2020-ci ildə görüləcək tədbirlərlə bağlı keçirilən müşavirədə aparılan işgüzar təhlil göstərdi ki, bu il pambıqçılıqda rekord nəticə qazanılıb.

Bir neçə il öncə kənd təsərrüfatında ənənəvi sahələri inkişaf etdirmək barədə dövlət başçısının verdiyi tapşırıq və tövsiyələri özlərinin konkret fəaliyyət proqramına çevirən, bu istiqamətdə əsl fədakarlıq nümunəsi göstərən tərtərlilər pambıqçılıqda təcrübə məktəbi yaratmışlar. Müşavirədə Tərtər pambıqçılarının əməyini yüksək qiymətləndirən Prezident İlham Əliyev demişdir: "Mən bir daha demək istəyirəm ki, Tərtərdə pambıqçılıqda əldə edilmiş təcrübə öyrənilməlidir. Doğrudan da, çox böyük işlər görülübdür, özü də nəzərə almalıyıq ki, bu, düşmənlə üz-üzə yerləşən rayondur və tərtərlilər həmişə öz qəhrəmanlıqlarını, vətənə bağlılıqlarını göstərmişlər. 2016-cı ilin aprel döyüşləri zamanı tərtərlilərin hamısı bir nəfər kimi öz torpağını müdafiə etməyə qalxmışdı. Bir nəfər də yerindən tərpənmədi. Bu böyük qəhrəmanlıqdır və vətənə olan bağlılıqdır. Belə ağır vəziyyətdə işləmək və yüksək nəticələr əldə etmək, doğrudan da, yüksək qiymətə layiqdir. Biz onu da yaxşı bilirik ki, bədnam qonşular Tərtərin suyunu da kəsiblər.

Ardı 4-cü səh.

## Mərkəzi Seçki Komissiyasının iclası keçirilib

Məzahir Pənahovun sədrliyi ilə dekabrın 28-də Mərkəzi Seçki Komissiyasının (MSK) növbəti iclası keçirilib.

Mərkəzi Seçki Komissiyası Katibliyinin Media və ictimai əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, əvvəlcə komissiyanın 2019-cu il 23 dekabr tarixli iclasının protokolu təsdiqlənib.

Sonra 2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə səsvermənin yeri və vaxtı barədə seçicilərin məlumatlandırılmasına dair bildirişin mətni, forması, sayı və hazırlanma qaydası ilə bağlı məsələyə baxılıb. Məlumat üçün qeyd etmək lazımdır ki, bildirişdə seçicinin adı, özünün və səs verəcəyi seçki məntəqəsinin ünvanı, səsvermənin yeri və vaxtı, səsvermə prosesində istifadə edilən şəxsiyyəti təsdiq edən sənədlərin siyahısı, həmçinin səsvermə qaydaları ətraflı şəkildə əks olunur. Müzakirələrdən sonra komissiya səsvermənin yeri və vaxtı barədə seçicilərin məlumatlandırılmasına dair 5375967 (beş milyon üç yüz yetmiş beş min doqquz yüz altmış yeddi) bildirişin mətbəə üsulu ilə hazırlanmasına qərar verib.

İclasda, həmçinin dekabrın 23-də keçirilmiş bələdiyyə seçkiləri ilə əlaqədar MSK-ya daxil olmuş müraciətlərə baxılıb və seçki qanunvericiliyinin tələblərinə uyğun olaraq müvafiq qərarlar qəbul edilib.

Kütləvi informasiya vasitələri nümayəndələrinin iştirak etdiyi iclasda 23 dekabr bələdiyyə seçkiləri və qarşıdan gələn Milli Məclisə seçkilərlə bağlı cari məsələlərə də baxılıb.

# Azərbaycan Respublikasının "Diaspor fəaliyyətində xidmətə görə" medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 9-cu bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1992, № 23, maddə 996; 1993, № 23-24, maddə 676; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 5, maddə 251; 2003, № 12 (I kitab), maddə 677; 2005, № 4, maddə 291; 2006, № 10, maddə 846; 2007, № 3, maddə 213; 2008, № 6, maddələr 452, 472; 2009, № 1, maddə 4, № 5, maddə 312, № 7, maddələr 514, 515, № 12, maddə 974; 2010, № 3, maddə 174, № 11, maddə 960; 2011, № 11, maddə 992; 2012, № 7, maddə 664, № 11, maddələr 1036, 1048, 1061; 2013, № 5, maddələr 460, 478, № 10, maddə 1143, № 12, maddə 1477; 2014, № 6, maddələr 612, 623; 2015, № 12, maddə 1447; 2016, № 12, maddələr 1979, 2040; 2017, № 1, maddələr 16, 27, № 7, maddə 1311, № 10, maddə 1771, № 11, maddə 1962, № 12 (I kitab), maddələr 2242, 2269; 2018, № 2, maddə 168, № 3, maddə 387, № 5, maddələr 841, 859, 874, № 6, maddə 1190, № 11, maddə 2207, № 12 (I kitab), maddələr 2465, 2516; 2019, № 3, maddə 369, № 5, maddə 790; Azərbaycan Respublikasının 2019-cu il 22 oktyabr tarixli 1687-VQD nömrəli Qanunu) 2-ci maddəsində "Diplomatik xidmətə verilən töhfəyə görə" medalı;" hissəsindən sonra aşağıdakı məzmunda yeni hissə əlavə edilsin:

"Diaspor fəaliyyətində xidmətə görə" medalı;".

**Maddə 2.** "Diaspor fəaliyyətində xidmətə görə" Azərbaycan Respublikasının medalı haqqında Əsasnamə" təsdiq edilsin (əlavə olunur).

**Maddə 3.** "Diaspor fəaliyyətində xidmətə görə" Azərbaycan Respublikası medalının təsviri" təsdiq edilsin (əlavə olunur).

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 dekabr 2019-cu il*

# "Azərbaycan Respublikasının "Diaspor fəaliyyətində xidmətə görə" medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 3 dekabr tarixli 1723-VQD nömrəli Qanununun tətbiqi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının "Diaspor fəaliyyətində xidmətə görə" medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 3 dekabr tarixli 1723-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. "Diaspor fəaliyyətində xidmətə görə" Azərbaycan Respublikasının medalı ilə təltif etmək səlahiyyəti Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin sədrinə verilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan Respublikasının "Diaspor fəaliyyətində xidmətə görə" medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 3 dekabr tarixli 1723-VQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 dekabr 2019-cu il*

*Azərbaycan Respublikasının 2019-cu il 3 dekabr tarixli Qanunu ilə təsdiq edilmişdir*

# "Diaspor fəaliyyətində xidmətə görə" Azərbaycan Respublikasının medalı haqqında əsasnamə

**Maddə 1. Təltif edilən şəxslər**

1.0. "Diaspor fəaliyyətində xidmətə görə" Azərbaycan Respublikasının medalı ilə Azərbaycan Respublikasının vətəndaşları, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər aşağıdakı xidmətlərinə görə təltif edilirlər:

1.0.1. Azərbaycan diasporunun fəaliyyətinə verilən mühüm töhfəyə görə;

1.0.2. diasporun Azərbaycan Respublikası ilə əlaqələrinin möhkəmləndirilməsi, beynəlxalq aləmdə Azərbaycanla bağlı obyektiv informasiyanın yayılmasında göstərilən xidmətə görə;

1.0.3. Azərbaycan dilinin və mədəniyyətinin xarici ölkələrdə təbliğinə verilən töhfəyə görə;

1.0.4. Azərbaycan Respublikasının beynəlxalq aləmdə ikitərəfli və çoxtərəfli əlaqələrinin inkişafında səmərəli fəaliyyətə görə.

**Maddə 2. Təltif edən orqan**

"Diaspor fəaliyyətində xidmətə görə" Azərbaycan Respublikasının medalı ilə bu Əsasnamənin 1-ci maddəsində göstərilən şəxslər Azərbaycan Respublikasının Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndinə uyğun olaraq təltif edilirlər.

**Maddə 3. Taxılma qaydası**

"Diaspor fəaliyyətində xidmətə görə" Azərbaycan Respublikasının medalı döşün sol tərəfinə, Azərbaycan Respublikasının digər orden və medalları olduqda, onlardan sonra taxılır.

*Azərbaycan Respublikasının 2019-cu il 3 dekabr tarixli Qanunu ilə təsdiq edilmişdir*

# "Diaspor fəaliyyətində xidmətə görə" Azərbaycan Respublikası medalının təsviri

**Maddə 1. Medalın ümumi təsviri**

"Diaspor fəaliyyətində xidmətə görə" Azərbaycan Respublikasının medalı (bundan sonra - medal) bürüncdən tökülmüş və qızıl suyuna çəkilmiş, guşələrinin arası iki üzbəüz birləşən qövs şəklində işlənmiş, diametri 40 mm olan səkkizguşəli ulduz formalı lövhədən ibarətdir.

**Maddə 2. Medalın ön tərəfi**

2.1. Səkkizguşəli ulduzun üzərində konturlanmış dairəvi lövhə yerləşdirilmişdir. Dairəvi lövhə üfüqi istiqamətdə Azərbaycan Respublikasının Dövlət Bayrağının rənglərinə uyğun mina ilə örtülmüşdür.

2.2. Dairənin mərkəzində mina üzərində yer kürəsini əks etdirən meridian və paralellər təsvir olunmuşdur. Yer kürəsinin aşağı hissəsində dəfnə budağı həkk edilmişdir. Bütün elementlər relyefli olaraq qabarıqdır.

**Maddə 3. Medalın arxa tərəfi**

3.1. Medalın arxa tərəfi hamar səthlidir.

3.2. Medalın arxa tərəfinin mərkəzində "DİASPOR FƏALİYYƏTİNDƏ XİDMƏTƏ GÖRƏ" sözləri, aşağı hissəsində medalın seriyası və nömrəsi həkk olunmuşdur. Yazılar relyefli olaraq qabarıqdır.

**Maddə 4. Medalın elementləri**

4.1. Medal paltara bərkidilmək üçün elementi olan, üzərinə 30 mmx13 mm ölçülü xara lent çəkilmiş beşbucaqlı lövhəyə iki halqa və ilgək vasitəsilə birləşdirilir.

4.2. Qızılı rəngli xara lentin mərkəzində 7 mm enində tünd qırmızı rəngli zolaq, mərkəzdən sol və sağ tərəflərə doğru mərkəzi qırmızı zolaqdan 1,5 mm aralı, hər birinin eni 2 mm olan iki tünd qırmızı rəngli zolaq təsvir edilmişdir. Beşbucaqlı lövhənin aşağı hissəsində qabarıq şəkildə aypara və səkkizguşəli ulduz həkk olunmuşdur.

4.3. Medala paltara bərkidilmək üçün elementi olan, eyni xara lentdən üz çəkilmiş 30 mm x 9 mm ölçülü qəlib əlavə olunur.




# "Kitabxana işi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 12 mart tarixli 115 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 19 fevral tarixli 1506-VQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 19 mart tarixli 593 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə **qərara alıram:**

1. "Kitabxana işi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 12 mart tarixli 115 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 3, maddə 167; 2002, № 8, maddə 482; 2006, № 9, maddə 743; 2007, № 6, maddə 601) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1.1. aşağıdakı məzmunda ikinci abzas əlavə edilsin:

"Kitabxana işi haqqında" Azərbaycan Respublikası Qanununun 15-ci maddəsinin birinci hissəsinin birinci və ikinci bəndlərində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;";

1.2. üçüncü və dördüncü abzaslar aşağıdakı redaksiyada verilsin:

"həmin Qanunun 7-ci maddəsinin üçüncü hissəsində, 8-ci maddəsinin beşinci hissəsində, 10-cu maddəsinin ikinci hissəsində, 13-cü maddəsinin ikinci hissəsində, 15-ci maddəsinin dördüncü hissəsində, 17-ci, 18-ci maddələrində, 28-ci maddəsinin ikinci hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

həmin Qanunun 15-ci maddəsinin birinci hissəsinin birinci bəndində nəzərdə tutulmuş "orqanın (qurumun) kitabxanası" və ikinci bəndində nəzərdə tutulmuş "orqanın (qurumun) kitabxanaları" Azərbaycan Respublikası Nazirlər Kabinetinin həmin Qanunun 15-ci maddəsinin dördüncü hissəsinə uyğun olaraq təsdiq etdiyi kitabxanaların çap məhsullarının pulsuz məcburi nüsxələri ilə təchizatı qaydasında müəyyən edilirlər;";

1.3. ikinci-yeddinci abzaslar müvafiq olaraq 2.1-2.6-cı bəndlər hesab edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Kitabxana işi haqqında" Azərbaycan Respublikası Qanununun 15-ci maddəsinin birinci hissəsinin birinci bəndində nəzərdə tutulmuş "orqanın (qurumun) kitabxanası"nı və ikinci bəndində nəzərdə tutulmuş "orqanın (qurumun) kitabxanaları"nı, onların hər birinin adını göstərməklə, həmin Qanunun 15-ci maddəsinin dördüncü hissəsinə uyğun olaraq təsdiq etdiyi kitabxanaların çap məhsullarının pulsuz məcburi nüsxələri ilə təchizatı qaydasında bir ay müddətində müəyyən edərək Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 dekabr 2019-cu il*

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident.

Əvvəlcə icazə verin, Sizə və ailənizə ən xoş arzularımı çatdırım.

Doğum gününüzü səmimi-qəlbdən təbrik edir, Sizə xoşbəxtlik, cansağlığı və firavan Yeni il arzulayıram. Yeni ildə 2019-cu ilin nəticələrini və əməkdaşlıq fəaliyyətini nəzərdən keçirmək və növbəti hədəfləri müəyyən etmək baxımından gözəl fürsət yaranacaq.

Azərbaycan və Niderland arasında məhsuldar əməkdaşlığı bir daha qeyd etmək istərdim.

Niderlandın bir sıra şirkətləri iyun ayında Avropa İttifaqı - Azərbaycan biznes forumunda iştirak edib. Niderland "Caspian Agro" sərgisində təmsil olunub və 2020-ci ildə də bu sərgidə iştirak etməyi planlaşdırır.

Birgə tədbirlərin uğurlarını davam etdirmək, ölkələrimiz arasında iqtisadi və biznes əlaqələrini daha da gücləndirmək baxımından, Azərbaycanın "Floriade Expo 2022" sərgisində iştirak edəcəyini eşidəndə çox məmnun oldum. Ölkəniz "Floriade 2012" sərgisində uğurla iştirak etmişdi və onun pavilyonu ziyarətçilər tərəfindən çox bəyənilmişdi.

Fürsətdən istifadə edərək Azərbaycan və Niderland arasında ikitərəfli əlaqələrin inkişafına göstərdiyiniz dəstəyə görə Sizə dərin minnətdarlığımı bildirmək istərdim. Əməkdaşlığımızı davam etdirməyi səbirsizliklə gözləyirik.

Sizə və yaxınlarınıza xoşbəxtlik və cansağlığı, ölkənizə və xalqınıza sülh, rifah arzulayıram.

*Dərin hörmətlə,*

***Rene Van der LİNDEN,***
***Niderland Krallığı Senatının sabiq spikeri, Avropa Şurası Parlament Assambleyasının fəxri sədri, Niderland-Azərbaycan Dostluq Qrupunun sədri***

Cənab Prezident.

Allahın salamı, mərhəməti, bərəkəti üzərinizdə olsun.

Mübarək doğum gününüz münasibətilə zati-alinizə ən səmimi təbriklərimi çatdırıram. Sizin uğurlu həyat yolunuz bizə qardaş olan ölkənizə xidmət yolunda çox böyük nümunədir. Azərbaycan Sizin müdrik rəhbərliyinizlə xalqın rifahının yüksəldilməsinə, çox sürətli iqtisadi və sosial inkişafa nail olub.

Fürsətdən istifadə edərək zati-alinizə cansağlığı və daha böyük nailiyyətlər, qardaş Azərbaycan xalqına tərəqqi və rifah arzulayıram.

Yüksək ehtiramımızı qəbul etməyinizi xahiş edirəm. Allah Sizi qorusun.

*Dərin hörmətlə,*

***Seyyid Mahmud ŞƏRİF,***
***Misir Parlamentinin Birinci vitse-spikeri***





# İlham Əliyev dayağımız, Mehriban xanım ümid çırağımızdır





*Əvvəli 1-ci səh.*

Prezidentlə söhbətini ömrünün bu çağında ona verilən ən böyük hədiyyə kimi qiymətləndirən ağbirçək ana qəzetimiz vasitəsilə cənab İlham Əliyevə ismarıc da yolladı:

*"Bir daha söyləyirəm, xöşbəxt xalqıq ki, Allah bizə belə rəhbər qismət edib. Belə rəhbər üçün nə qədər alqış etsək, dua oxusaq yenə də azdır. Dərdimizə şərik olan, qayğımızı çəkən Prezidentimiz, var olun. Çox hörmətli Prezidentimiz, siz Azərbaycanımızın fəxrisiz, qürurumuzsuz, Mehriban xanım da sizin ən böyük dəstəkçiniz, dayağınızdır. Allah sizi bu millətin üstündən əskik etməsin. Bu xalq sizə arxalanır və sizə ümidlidir. Etdiyiniz yaxşılıqları Allah övladlarınızın qarşısına çıxarsın, balalarınız, nəvələriniz gözünüzə çıraq olsun. Ömrüm boyu duaçınız olacam. Tanrı sizi xətadan-bəladan qorusun".*

Həsənovlar ailəsi ilə çay süfrəsi ətrafında əyləşən dövlət başçısı onların vəziyyəti ilə maraqlanıb, görülən işlərdən söhbət açıb. Xuraman nənənin oğlu Fərdar Həsənov deyir ki, bu gəliş onlar üçün həqiqətən də gözlənilməz olub: "Bilirdik ki, cənab Prezidentin diqqətindəyik. İki dəfə Şamaxıya gəlib vəziyyətlə maraqlanmışdı, tapşırıqlar vermişdi ki, ilin sonuna qədər bütün mənzillər tikilsin. İnsanlar Yeni ili təzə mənzillərində qarşılasınlar. Fövqəladə Hallar Nazirliyinin əməkdaşları da sağ olsunlar, gecə-gündüz çalışdılar. Zəlzələ nəticəsində dağılan evlər onsuz da bərbad vəziyyətdə idi. Yaşayışa yararlı deyildi və istismar müddəti bitmişdi. İndi mənzil şəraiti əladır. Hər bir şəraiti - istilik sistemi, qazı, suyu, işığı var. Hər bir avadanlıqla təchiz edilmiş geniş otaqlar yaşayış üçün tələbata tam uyğundur. Sağ olsun dövlətimiz, Prezidentimiz ki, insanlara əvvəlkindən də möhtəşəm evlər tikib verdi".





## Saray nənə: "İlham, oğlum, ömrün uzun, canın sağlam, başın həmişə uca olsun"

Prezident Şamaxıda keçirdiyi görüşdə zəlzələdən bir gün sonra rayona səfərini və evi qəzalı duruma düşən Saray nənə ilə ilk görüşünü, bir aydan sonra Mehriban xanım Əliyeva ilə birlikdə ağbirçək ana üçün tikilən yeni mənzildə qonaq olduğunu da xatırladı. Bunu dövlətin vətəndaşına göstərdiyi diqqət və qayğının bariz nümunəsi kimi qiymətləndirdi.

Bu gün yeni mənzilində nəvələri ilə xoşbəxt ömür sürən Saray nənə də Prezidentə duaçıdır. Deyirlər qocaldıqca yaddaş zəifləyir. Amma ağbirçək ana hələ də o günləri dəqiqliyi ilə yadında saxlayır.

Deyir ki, Prezident ona cəmi bir aya əvvəlkindən daha yaxşı ev tikdirib: "Ay bala, hər gün Allaha dua edəndə deyirəm ki, İlham oğlumu, Mehriban qızımı qoru, ya Rəbbim. Yetimə, kasıba, kimsəsizə hayandılar, dayaqdılar...

Çarəsiz ana idim, evim dağılmışdı. Ölüm arzulayırdım özümə, İlham oğlum gəldi, təsəlli verdi, dayağım oldu. Dedi tezliklə təzə ev tikdirəcəm. Ağbirçək ana kimi sözümü yerə salmadı. 1 aya dağılan evimin yerində elə gözəl ev tikdirdi ki...

Bu, Prezidentin bizə böyük hədiyyəsidir. Bizə bu gözəl şəraiti yaratdıqlarına görə ömür boyu Əliyevlər ailəsinə minnətdaram.

Demişdim gələndə xanımını da gətir. Bu sözümü də yerə salmadı. Mehriban qızımı da gətirdi, qonağımız oldular. Qızım dedi ki, İlham səndən o qədər danışıb ki, tələsirdim səni görməyə. Elə adı kimi özü də mehribandı, istiqanlıdı. Allah onların hər ikisinə uzun ömür versin. Baxıram, televizorda görən kimi əllərimi qaldırıb dua edirəm. Deyirəm, İlham, oğlum, Allah səni var eləsin, ömrümə ömür qatdın, başımı uca tutdun. Ömrün uzun, canın sağlam olsun, oğlum!"

## Prezident qayğısı

Təbii fəlakətdən 10 ay ötür və indi Şamaxıda tam başqa ab-hava var. Şahidi olduğumuz mənzərə - Xuraman və Saray nənənin xoş sözləri, yeni mənzillərinə köçən insanların sevinci, tikinti-quruculuq işlərinin davam etməsi həqiqətən də bizdə xoş təəssürat yaratdı.

Qeyd edək ki, Birinci vitse-prezident Mehriban Əliyevanın göstərişi ilə Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyi tərəfindən rayon mərkəzindəki Şəhriyar, Təbriz, Salman Mümtaz, Azadlıq və Səttar Bəhlulzadə küçələrində sakinlər üçün tikilən mənzillərin böyük hissəsi istifadəyə verilib.

Prezidentin tapşırığına əsasən Fövqəladə Hallar Nazirliyi tərəfindən ümumilikdə 580 yaşayış evi tikilib. Bundan başqa, Şamaxı şəhəri ərazisində müxtəlif səbəblərdən yerində tikintisi mümkün olmayan 132 fərdi yaşayış evinin sakinləri üçün hündürmərtəbəli yaşayış binası tikilir. Bunlardan 4 mərtəbəli 44 mənzilli və 5 mərtəbəli 20 mənzilli yaşayış binası hazırdır. 5 mərtəbəli 110 mənzilli binanın tikintisi dekabr ayının 31-də yekunlaşacaq. Onu da əlavə edək ki, yalnız Şamaxıda deyil, zəlzələdən ziyan çəkmiş Ağsu və İsmayıllı rayonlarında da yeni evlər tikilir, həmçinin bərpa işləri aparılır.

Bütün bunlar Prezident qayğısının əyani təzahürüdür. Kimliyindən, tutduğu mövqedən asılı olmayaraq hər bir vətəndaşın problemi cənab İlham Əliyevin diqqətində və nəzarətindədir. Vətəndaşlarla səmimi görüşlər keçirməsi, onların problemlərini dinləməsi və həll olunması üçün müvafiq göstərişlər verməsi, bağışlamaq böyüklüyü cənab İlham Əliyevin ölkə rəhbəri kimi hər zaman insanların yanında olduğunu, siyasətinin mərkəzində vətəndaşın dayandığını bir daha təsdiq edir.

Bütün bunlar deməyə əsas verir ki, daim vətəndaşla birgə olmaq Prezidentin həyat amalına çevrilib. Bu isə xalqın Prezidentə olan etimadını gündən-günə daha da artırır.

***Rəşad BAXŞƏLİYEV,***
***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# AMEA-nın ümumi yığıncağı keçirilib

Dekabrın 28-də Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) ümumi yığıncağı keçirilib. AZƏRTAC xəbər verir ki, tədbirdə AMEA-nın rəhbərliyi, Azərbaycan Respublikası Baş Nazirinin müavini Şahin Mustafayev, Prezident Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva, İqtisadiyyat naziri Mikayıl Cabbarov, Təhsil naziri Ceyhun Bayramov, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti Rövnəq Abdullayev, Hesablama Palatasının sədri Vüqar Gülməmmədov, AMEA-nın həqiqi və müxbir üzvləri, ali təhsil müəssisələrinin rəhbərləri və KİV nümayəndələri iştirak ediblər.





Ümumi yığıncağın gündəliyindəki məsələləri diqqətə çatdıran AMEA-nın prezidenti, akademik **Ramiz Mehdiyev** çıxışında bildirib ki, Azərbaycan Respublikasında elmin inkişafı dövlət siyasətinin əsas prioritetlərindəndir. Dövlətin gələcəyi, iqtisadi, siyasi və hərbi qüdrəti onun elmi potensialı ilə bilavasitə bağlıdır. Ölkənin davamlı inkişaf strategiyası, habelə müasir dünyada baş verən qlobal iqtisadi problemlər Azərbaycanın intellektual əsaslar üzərində inkişafını zərurətə çevirib.

Respublikada elmi fəaliyyət sahəsində dövlət siyasətini həyata keçirən ali dövlət təşkilatı Azərbaycan Milli Elmlər Akademiyasıdır. Akademiya 75 illik tarixi ərzində, xüsusilə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin respublikaya rəhbərliyi dövründə zəngin bir inkişaf yolu keçib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bütün digər sahələrdə olduğu kimi, elmi fəaliyyət sahəsinə yanaşmada da Ümummilli Lider Heydər Əliyevin siyasətini uğurla davam etdirməkdədir. Bunun nəticəsidir ki, hazırda akademiyanın fəaliyyət dairəsi xeyli genişləndirilib, onun səlahiyyətləri artırılıb. Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 4 may tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiya" və onun həyata keçirilməsi ilə bağlı dövlət proqramının icrası istiqamətində görülmüş işlər bütövlükdə Azərbaycan elminin, o cümlədən AMEA-nın inkişafına böyük təkan verib.

AMEA-nın prezidenti qeyd edib ki, bütün bunlarla yanaşı, hazırda akademiyanın qarşısında tamamilə yeni vəzifələr dayanır. Hazırkı şəraitdə akademiyanın elmi potensialının inkişaf etdirilməsi üçün ciddi islahatlara ehtiyac var. Bu vəzifələr həm dünya elminin inkişaf meyillərindən, həm də ölkənin modernləşməyə və intellektual inkişaf modelinə əsaslanan strateji inkişaf istiqamətlərindən irəli gəlir. Məlumdur ki, bu gün inkişafın əsas lokomotivi elm və innovasiyadır. Bu mənada akademiya bütün başlanğıcların lideri olmalıdır. Akademiya dövlət başçısı tərəfindən həyata keçirilən çoxşaxəli islahatlara elmin dəstəyini təmin etmək üçün məqsədyönlü tədbirlər reallaşdırmalıdır. Xatırlatmaq istəyirəm ki, 2015-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev akademiyanın 70 illik yubileyində dərin məzmunlu nitqlə çıxış edib. Cənab Prezident həmin nitqində Azərbaycan elminin respublikanın sosial-iqtisadi və mədəni-mənəvi inkişafı ilə bağlı prioritet fəaliyyət istiqamətlərini müəyyənləşdirib. Xeyli müddət keçməsinə baxmayaraq, cənab Prezidentin qaldırdığı məsələlər bu gün də akademiya üçün aktual olaraq qalmaqdadır.

Elmi fəaliyyət sahəsində əsas çatışmazlıqları ardıcıl olaraq qeyd edən Ramiz Mehdiyev deyib: "Təəssüf hissilə deməliyəm ki, akademiya mühüm dövlət proqramlarının icrası prosesində lazımi səviyyədə iştirak etmir. Dövlət hər il akademiyaya kifayət qədər böyük məbləğdə vəsait ayırır. Lakin əvəzində, demək olar ki, heç bir fayda əldə edilmir. Biz bu istiqamətdə işimizi yenidən qurmalıyıq. Hər bir institut dövlət maraqlarından irəli gələn məsələlərin həllində öz yerini və rolunu dəqiq müəyyən etməlidir. Akademiya öz intellektual potensialı ilə mühüm dövlət proqramlarının, elmi-texniki layihələrin əsas eksperti funksiyasını həyata keçirməlidir.

Son illər akademiya əməkdaşlarının elmi-tədqiqat işlərinə Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişaf Fondundan və Azərbaycan Dövlət Neft Şirkətinin "Elm" Fondundan 50 milyondan artıq vəsait ayrılıb. Lakin ayrılan vəsaitlə müqayisədə bu tədqiqatların konkret nəticələri hələ ki görünmür.

Alimlərin beynəlxalq elmi layihələrdə, o cümlədən dövlətin reallaşdırdığı milli və regional elmi layihələrdə iştirakı olduqca zəifdir. Avropa Komissiyası beynəlxalq elmi layihələrə 80 milyard avro vəsait ayırıb. Yenə də təəssüf hissilə qeyd etmək istəyirəm ki, alimlərimizin bu layihələrdə iştirakı lazımi səviyyədə deyil. Bunun nəticəsidir ki, Azərbaycan elmi bir sıra müasir elm sahələrindən, həmçinin yeni iqtisadi modellərin işlənib hazırlanması və tətbiqindən kənarda qalıb".

Hazırda qeyri-neft sektorunun inkişafının dövlət siyasətinin mühüm istiqamətlərindən birini təşkil etdiyini vurğulayan AMEA-nın prezidenti bildirib ki, alimlərin qeyri-neft sektorunun inkişafına real dəstəyi və bu proseslərdə iştirakı isə ümumiyyətlə hiss olunmur. Bu da öz növbəsində, Elmlər Akademiyasının yalnız büdcə hesabına fəaliyyət göstərən quruma çevrilməsinə gətirib çıxarıb. Müqayisə üçün bildirmək istəyirəm ki, hazırda Belarus Elmlər Akademiyası büdcəsinin təxminən 60 faizi, Rusiya Elmlər Akademiyası büdcəsinin isə 30 faizi büdcədənkənar vəsaitlər hesabına formalaşır. Bizim akademiyamızın büdcəsinin isə yalnız 2 faizini büdcədənkənar vəsaitlər təşkil edir. Bu da onu göstərir ki, akademiyada elmi nəticələrin və innovasiya texnologiyalarının işlənib hazırlanması olduqca zəif qurulub. Yaradılmasından 3 il keçməyinə baxmayaraq, akademiyanın Yüksək Texnologiyalar Parkında da işlər müasir tələblər səviyyəsində qurulmayıb.

Elmi fəaliyyət sahəsində mövcud olan bu və digər nöqsanların, o cümlədən elmi müəssisələrdə tədqiqatçıların elmi fəaliyyətinin stimullaşdırılması işinin düzgün qurulmamasının nəticəsidir ki, hazırkı şəraitdə respublikamız üçün faydalı ola biləcək yüksəkixtisaslı kadrların xarici ölkələrə sahibkarlıq fəaliyyəti sahələrinə və digər strukturlara axını günümüzün reallığına çevrilib.

Bütün bu nöqsanların aradan qaldırılması üçün akademiyanın strukturu tamamilə yenidən qurulmalı, onun inkişaf hədəfləri, prioritetləri, dövlət siyasətinin həyata keçirilməsində iştirakı mexanizmləri dəqiq və aydın olaraq müəyyənləşdirilməli, təxirəsalınmaz əməli tədbirlər həyata keçirilməlidir.

AMEA-nın prezidenti deyib ki, sizə təqdim olunan proqram aşağıdakı bir neçə mühüm istiqaməti özündə birləşdirir:

- elmi tədqiqatların prioritetlərinin ölkənin sosial-iqtisadi, mədəni və ictimai problemlərinin həllinə yönəldilməsi;
- elm sahəsində idarəetmə sisteminin, həmçinin elmi infrastrukturun modernləşdirilməsi və optimallaşdırılması;
- elmi tədqiqat müəssisələrinin və bütövlükdə elmin maliyyələşdirilmə mexanizmlərinin təkmilləşdirilməsi;
- yüksəkixtisaslı kadrların hazırlanması;
- elmlə təhsilin inteqrasiyası;
- elmi işçilərin sosial təminatının yaxşılaşdırılması;
- elmin normativ-hüquqi bazasının və informasiya təminatının gücləndirilməsi və s.

Əminəm ki, bu proqram müasir şəraitdə akademiyada əsaslı islahatların həyata keçirilməsində mühüm rol oynayacaq.

Gündəlikdə yer alan ikinci mühüm məsələnin akademiyanın Nizamnaməsində bir sıra dəyişikliklərin edilməsi ilə bağlı olduğunu vurğulayan akademik Ramiz Mehdiyev deyib: "Bilirsiniz ki, akademiyanın Nizamnaməsi onun fəaliyyətini tənzimləyən əsas normativ hüquqi sənəddir. Müstəqillik illərində AMEA-nın ilk Nizamnaməsi xalqımızın Ümummilli Lideri Heydər Əliyev tərəfindən 2003-cü ildə təsdiq edilmişdir. Bu, o dövrdə akademiyanın, bütövlükdə Azərbaycan elminin inkişafında mühüm bir tarixi hadisə idi. Çünki məhz həmin Nizamnaməyə əsasən Azərbaycan Milli Elmlər Akademiyasına xüsusi status verilmişdir.

Lakin ölkənin sürətli sosial-iqtisadi inkişafı, cəmiyyətin bütün istiqamətlərdə əsaslı şəkildə yenilənməsi, hüquqi dövlət quruculuğu sahəsindəki nailiyyətlər elmi fəaliyyətin idarə edilməsi baxımından da köklü islahatların həyata keçirilməsi zərurətini yaratmışdır. Ona görə də akademiyanın Nizamnaməsi yeni tələblər əsasında hazırlanmış və 2014-cü ildə Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq olunmuşdur.

Elmi fəaliyyət sahəsində hüquqi islahatların genişlənməsi istiqamətində mühüm addım "Elm haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi barədə" Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2016-cı il 9 avqust tarixli Fərmanı olmuşdur. Biz "Elm" Qanununun verdiyi imkanlardan daha geniş istifadə etməklə akademiyanın qarşısında duran vəzifələrin həllinə nail olmalıyıq. Buna görə də Nizamnamədə bir sıra dəyişikliklərin edilməsi vacibdir.

Hesab edirəm ki, hazırkı şəraitdə həm akademiya, həm də ayrılıqda hər bir elmi müəssisə, şöbə, laboratoriya qarşısında duran vəzifələrə yenidən baxılmalıdır. Onların araşdırdıqları problemlər, o cümlədən prioritetlər cəmiyyət quruculuğuna və ölkənin inkişaf strategiyasına uyğun olaraq yenidən müəyyənləşdirilməlidir.

Qarşıya qoyulan yeni vəzifələr, prioritet elmi istiqamətlər kontekstində akademiyanın və onun elmi qurumlarının strukturunun təkmilləşdirilməsi üçün əsaslı tədbirlər həyata keçirilməlidir.

Fundamental və tətbiqi tədqiqatların səmərəliliyinin artırılması, xüsusilə innovasiya fəaliyyətinin genişləndirilməsi üçün intellektual əmək resurslarından daha səmərəli istifadə edilməlidir. Elmi işçilərin attestasiyası həyata keçirilməli və onların səmərəli yerləşdirilməsi təmin edilməlidir.

AMEA-nın prezidenti diqqətə çatdırıb ki, gündəlikdə yer alan digər məsələ Nizamnamə komissiyasının sədrinin və tərkibinin müəyyənləşdirilməsi və təsdiqidir. Bu da mühüm məsələlərdən biridir. Çünki akademiya sistemində Nizamnamə komissiyası elmin normativ-hüquqi bazasının formalaşdırılması baxımından xüsusi əhəmiyyətə malikdir. Nəzərə alsaq ki, akademiyada Nizamnamə komissiyası sonuncu dəfə 2013-cü ildə təsdiq edilmişdir, artıq bu məsələyə də yenidən baxılmalıdır.

Bu gün ümumi yığıncaqda Rəyasət Heyətinin tərkibində bəzi dəyişikliklərin edilməsi də nəzərdə tutulur. Qarşımızda mühüm hədəflərin dayandığı bir şəraitdə akademiyanın əsas vəzifə və funksiyalarını icra edən Rəyasət Heyətinin işinin səmərəliliyinin artırılması zəruridir.

Akademik Ramiz Mehdiyev çıxışını yekunlaşdıraraq deyib: "Əminəm ki, qeyd olunan məsələlərlə bağlı ətraflı müzakirələr aparıb Azərbaycan elminin inkişafı, akademiyanın strukturunun təkmilləşdirilməsi, onun fəaliyyətinin optimallaşdırılması və inkişaf perspektivlərinin müəyyənləşdirilməsi, kadr potensialının gücləndirilməsi istiqamətində mühüm qərarlar qəbul edəcəyik".

Gündəlikdə dayanan birinci məsələ ilə bağlı söz AMEA-nın akademik-katibi, akademiyanın müxbir üzvü **Əminağa Sadıqova** verilib. "AMEA-nın 2020-2025-ci illər üçün inkişaf proqramı"nın əsas müddəalarını iştirakçıların diqqətinə çatdıran AMEA-nın müxbir üzvü bildirib ki, təqdim olunan proqram elmi tədqiqatların prioritetlərinin müəyyən edilməsi, struktur islahatların aparılması və idarəetmənin təkmilləşdirilməsi, elmi infrastrukturun modernləşdirilməsi, elmin maliyyələşdirilməsinin təkmilləşdirilməsi və s. məsələləri əhatə edir. Elm, təhsil və iqtisadiyyatın inteqrasiyasının gücləndirilməsi, sahibkarlıq və innovasiya fəaliyyətinin genişləndirilməsi və elmi nəticələrin tətbiqi, Azərbaycançılıq ideologiyasının, milli-mənəvi dəyərlərin əsaslarının işlənib hazırlanmasında elmin dəstəyinin təmin edilməsi də proqramda yer alan mühüm bəndlərdəndir.

Proqramın hər bir istiqaməti haqqında ətraflı məlumat verən AMEA-nın müxbir üzvü elmi prioritetlərin müəyyənləşdirilməsində dövlətin akademiyanın qarşısında qoyduğu vəzifələrin əsas prinsip olaraq nəzərə alınması, struktur islahatlarında idarəetmənin ağırlıq mərkəzinin elmi müəssisələrə keçirilməsi, elmin maliyyələşdirilməsində əməyin indeksləşdirilməsi, elm, təhsil və iqtisadiyyatın inteqrasiyasında dünya təcrübəsinin tətbiqi kimi məsələlərə toxunub.

Sonra Əminağa Sadıqov proqram çərçivəsində on pilot layihənin həyata keçiriləcəyini tədbir iştirakçılarının diqqətinə çatdırıb.

Ümumi yığıncaqda çıxış edən AMEA-nın Gəncə Bölməsinin sədri, akademik **Fuad Əliyev**, AMEA-nın İqtisadiyyat İnstitutunun şöbə müdiri, Bakı Dövlət Universitetinin kafedra müdiri, akademik **Vasif Babazadə**, AMEA-nın müxbir üzvü **Şahbaz Muradov**, AMEA-nın Fəlsəfə İnstitutunun şöbə müdiri, AMEA-nın müxbir üzvü **Könül Bünyadzadə**, AMEA-nın İdarəetmə Sistemləri İnstitutunun laboratoriya müdiri, AMEA-nın müxbir üzvü **Akif Musayev**, AMEA-nın Mikrobiologiya İnstitutunun elmi işlər üzrə direktor müavini, AMEA-nın müxbir üzvü **Pənah Muradov** proqramın akademiyanın inkişafına töhfə verəcəyini bildiriblər. Çıxışlarda keçilmiş yolun müsbət cəhətlərinin qeyd edilməsi ilə bərabər, yol verilmiş nöqsanlar və çatışmazlıqlar, həlli vacib olan problemlər haqqında da geniş bəhs edilib, qarşıda duran vəzifələrdən, həlli zəruri olan problemlərdən danışılıb, təkliflər səsləndirilib.

Akademiya ictimaiyyəti Milli Elmlər Akademiyasının inkişafında yeni mərhələnin başlandığını və bu mərhələnin ciddi islahatlarla bağlı olduğunu qeyd edib. Belə bir yekdil fikir ifadə olunub ki, Azərbaycan Milli Elmlər Akademiyası öz fəaliyyətini müstəqil dövlətimizin daha da inkişaf etdirilməsinə doğru yenidən qurmalı, bu istiqamətdə öz borcunu yerinə yetirməlidir.

Azərbaycan Milli Elmlər Akademiyasının 2020-2025-ci illər üzrə inkişaf proqramı geniş müzakirələrdən sonra qəbul edilib.

Tədbirdə AMEA-nın Nizamnaməsində dəyişiklik edilməsi barədə məsələ müzakirəyə çıxarılıb. Akademiyanın Nizamnaməsinə bir sıra dəyişikliklərin edilməsi ilə bağlı AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyli çıxış edib. O bildirib ki, AMEA-nın Nizamnaməsi akademiyanın fəaliyyətini tənzimləyən əsas normativ-hüquqi sənəddir. Müstəqillik illərində AMEA-nın ilk Nizamnaməsi 2003-cü ildə xalqımızın Ümummilli Lideri Heydər Əliyev tərəfindən təsdiq edilmiş, daha sonra 2014-cü ildə Nizamnamə bu zəmində əsaslı şəkildə yenidən işlənərək hazırlanmış və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən təsdiq olunmuşdur. Nizamnamə müstəqillik illərində akademiyanın inkişafında müstəsna rol oynamışdır.

Akademik İsa Həbibbəyli qeyd edib ki, 2016-cı ildə "Elm haqqında" Azərbaycan Respublikası Qanununun qəbul edilməsi, 2017-ci ildə dövlət başçısının sərəncamı ilə Yüksək Texnologiyalar Parkının yaradılması və Azərbaycan Milli Elmlər Akademiyasının dünya elminə inteqrasiyasından doğan yeniləşmələr, həmçinin akademiyanın fəaliyyətinin təkmilləşdirilməsi zərurətindən irəli gələn vəzifələr Nizamnaməyə bir sıra dəyişikliklərin edilməsi zərurətini yaradıb. Sonra o, dəyişiklikləri yığıncaq iştirakçılarının diqqətinə çatdırıb. Bildirib ki, təklif olunan dəyişikliklər əsasən AMEA-nın strukturunun optimallaşdırılması və idarəetmənin təkmilləşdirilməsi məsələlərini əhatə edir. Burada akademiyanın daha çevik və səmərəli idarə edilməsi üçün yeni mexanizmlər, müasir tələblərə cavab verən hüquqi meyar və prinsiplər nəzərdə tutulur. Vitse-prezident onu da əlavə edib ki, sənəddə sahibkarlıq və innovasiya fəaliyyəti ilə bağlı xüsusi maddələr yer alır və bu da akademiyanın fəaliyyətində elm sahəsində sahibkarlıqdan əldə olunan gəlirlərin təyinatı üzrə, akademiya əməkdaşlarının sosial müdafiəsinə və bu elmi qurumun inkişaf etdirilməsinə yönəldilməsi və s. yeni istiqamətlərin formalaşmasına sərf olunmasına şərait yaradır.

Müzakirələrdən sonra AMEA-nın Nizamnaməsi edilmiş dəyişikliklərlə yeni redaksiyada qəbul olunub.

Sonra AMEA-nın Nizamnamə komissiyası ilə bağlı məsələ müzakirə edilib. Akademik İsa Həbibbəyli yenidən komissiyanın sədri seçilib. Komissiyanın akademiklər İsmayıl Hacıyev, Vaqif Fərzəliyev, AMEA-nın müxbir üzvü Əminağa Sadıqov, hüquq elmləri doktoru Nazim Cəfərli və filologiya üzrə fəlsəfə doktoru Sərxan Xavəridən ibarət yeni tərkibi təsdiqlənib.

Daha sonra AMEA-nın birinci vitse-prezidenti vəzifələrinə seçkilər keçirilib. Gizli səsvermə yolu ilə keçirilən seçkilərdə AMEA-nın həqiqi üzvləri iştirak ediblər. Seçkilərin nəticəsinə görə akademik İsa Həbibbəyli humanitar və ictimai elmlər üzrə, akademik İbrahim Quliyev təbiət və dəqiq elmlər üzrə AMEA-nın birinci vitse-prezidenti vəzifələrinə seçiliblər.

Sonda AMEA Rəyasət heyətinin tərkibi 11 nəfərdən ibarət olmaqla təsdiq edilib.

## Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində yeni kursant yataqxanası istifadəyə verilib

Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində (AAHM) yeni istifadəyə verilən dördmərtəbəli kursant yataqxanasının açılışında iştirak edib.





Nazirliyin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, əvvəlcə hərbi məktəbin ərazisində Ümummilli Lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzülərək xatirəsi ehtiramla yad olunub.

Sonra yeni kursant yataqxanasının açılışı olub. Məlumat verilib ki, müasir tələblərə cavab verən yeni dördmərtəbəli bina şəxsi heyətin əşyalarının saxlanması üçün anbardan, silah, ideoloji, dəftərxana, məişət və digər otaqlardan ibarətdir. Bütün otaqlar mebel və kommunikasiya xətləri ilə təmin olunub. Ətrafda abadlıq işləri aparılıb, yaşıllaşdırma sahəsi salınıb.

## Hərbi hissədə qərargahın və təlim-məşq mərkəzinin yeni inzibati binalarının açılışı olub



Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin təsdiq etdiyi Azərbaycan Ordusunun modernləşdirilməsi planına əsasən müvafiq tədbirlər davam etdirilir.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, dekabrın 28-də hərbi hissələrdən birində qərargahın və təlim-məşq mərkəzinin yeni inzibati binalarının açılışı olub.

Məlumat verilib ki, mərkəz müasir və yüksək texnologiyalı simulyator qurğuları quraşdırılmış sinif, bütün kommunikasiya xətləri və digər zəruri avadanlıqla təchiz edilmiş inzibati və xidməti iş otaqlarından ibarətdir. Burada xüsusi kompüter proqramları ilə təmin olunmuş avadanlıq və trenajorlar şəxsi heyətin bilik və bacarıqlarının lazımi səviyyədə saxlanılmasına, tapşırıqlarının real döyüş şəraitinə uyğun, vaxtında və dəqiq yerinə yetirilməsi vərdişlərinin təkmilləşdirilməsinə imkan verir. Təlimatçılar tərəfindən hər bir müdavimin ixtisasına uyğun olaraq şərti tapşırıqlar qoyulur, onların tapşırığı yerinə yetirməsi prosesi elektron xəritələrdə izlənilir və qiymətləndirilir.

Müdafiə Nazirliyinin rəhbərliyi mərkəzin simulyator, eləcə də digər xidməti və inzibati otaqları ilə tanış olub.

## "Şücaətə görə" medalı hərbi pilot Rəşad Atakişiyevin ailəsinə təqdim olunub



Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun tapşırığına əsasən, Müdafiə nazirinin müavini - Hərbi Hava Qüvvələrinin komandanı general-leytenant Ramiz Tahirov təlim-məşq uçuşları zamanı qəzaya uğrayan Hərbi Hava Qüvvələrinin "MiQ-29" təyyarəsinin pilotu polkovnik-leytenant Rəşad Atakişiyevin ailəsinə baş çəkib.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, mərhum pilotun ailə üzvlərini qarşıdan gələn bayramlar münasibətilə nazirliyin rəhbərliyi adından təbrik edən R.Tahirov bildirib ki, R.Atakişiyev Azərbaycan Ordusunda xidmət etdiyi müddətdə peşəkar, nümunəvi, vətənpərvər zabit kimi tanınıb və onun xidmətləri həmişə yüksək qiymətləndirilib.

Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin göstərişinə əsasən vətənin müdafiəsində hərbi borcunu yerinə yetirərkən göstərdiyi xidmətlərə görə ölümündən sonra təltif olunduğu Azərbaycan Respublikasının "Şücaətə görə" medalı dekabrın 28-də bayram ərəfəsində polkovnik-leytenant R.Atakişiyevin ailəsinə təqdim edilib.

Medalı təqdim etdikdən sonra general-leytenant R.Tahirov hərbi pilotun ailəsinin qayğıları ilə maraqlanıb və bayram hədiyyələrini təqdim edib.

R.Atakişiyevin ailə üzvləri göstərilən diqqət və qayğıya görə dövlət başçısına və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

# İŞİMİZ, GÜZƏRANIMIZ

## Dövlət büdcəsinin gəlirləri xərclərini üstələyir

Dövlət Statistika Komitəsinin açıqladığı hesabatda bildirilir ki, cari ilin yanvar-oktyabr aylarında Azərbaycanın dövlət büdcəsinin gəlirləri əvvəlki ilin eyni dövrü ilə müqayisədə 6,3 faiz artaraq 19 milyard 367,04 milyon manata çatmışdır.



Bu dövrdə büdcədən 18 milyard 456,81 milyon manat (əvvəlki ilin eyni dövründəkindən 3,9 faiz çox) vəsait xərclənmiş, büdcənin icrasında 910,23 milyon manatlıq (ÜDM-in 1,39 faizi qədər) profisit yaranmışdır.

On ay ərzində daxilolmaların 21,73 faizi əlavə dəyər və 11,84 faizi hüquqi şəxslərin mənfəət (gəlir) vergiləri, 5,58 faizi iqtisadi fəaliyyətlə bağlı vergilər, 3,85 faizi aksizlər, 3,84 faizi fiziki şəxslərin gəlir vergisi, 1,59 faizi sadələşdirilmiş vergi, 2,16 faizi vergilərin digər növləri, 49,41 faizi isə vergi olmayan gəlirlər hesabına təmin edilmişdir.

Məlumatda o da bildirilir ki, bu dövrdə büdcə vəsaitlərinin 32,18 faizi iqtisadiyyatın inkişafı və tənzimlənməsinin, 13,17 faizi təhsil və səhiyyənin, 11,28 faizi sosial müdafiə və sosial təminat sahələrinin, 43,37 faizi digər sahələrin maliyyələşdirilməsinə xərclənmişdir.

Maliyyə Nazirliyinin təqdim etdiyi operativ məlumatlara əsasən, cari ilin yanvar-noyabr aylarında dövlət büdcəsinin gəlirləri 21 milyard 132,24 milyon, xərcləri 20 milyard 175,32 milyon manat olmuşdur ki, bu da büdcənin icrasında 956,52 milyon manatlıq (ÜDM-in 1,31 faizi qədər) profisit deməkdir.

## Əhalinin gəlirləri, o cümlədən əməkhaqqları artır

Dövlət Statistika Komitəsinin ilkin məlumatlarına görə, cari ilin yanvar-noyabr aylarında ölkə əhalisinin nominal gəlirləri əvvəlki ilin eyni dövrünə nisbətən 7,4 faiz artaraq 50 milyard 845,1 milyon manata çatmışdır. Bu dövrdə hər nəfərə orta hesabla 5135,2 manat gəlir düşmüşdür.

Bütün icbari və könüllü ödənişlər edildikdən sonra əhalinin sərəncamında 46 milyard 652 milyon manat (əvvəlki ilin eyni dövründəkindən 7,1 faiz çox) vəsait qalmışdır.

Əməkhaqqına gəldikdə ilin on ayının nəticəsinə görə, ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı 2018-ci ilin müvafiq dövrünə nisbətən 13,7 faiz artaraq 614,2 manat olmuşdur. Əməkhaqqı neft-qaz sektorunda 3060,8, qeyri neft-qaz sektorunda 559 manat təşkil etmişdir. Dövlət müəssisələrində çalışan işçilərin əməkhaqqları 506,9, özəl müəssisələrdə işləyənlərinki isə 751,6 manata çatmışdır.

Məlumatda o da qeyd edilir ki, mədənçıxarma sənayesində, maliyyə və sığorta, peşə, elmi və texniki, informasiya və rabitə, nəqliyyat və anbar təsərrüfatı, dövlət idarəetməsi və müdafiə; sosial təminat, eləcə də tikinti sahələrində orta aylıq nominal əməkhaqqı ölkə üzrə orta göstəricidən yüksək olmuşdur.

## Sosial müdafiənin gücləndirilməsinin əsas mənbəyi - iqtisadi inkişaf



Əvvəli 1-ci səh.

Hər şey buna bağlıdır. İlk növbədə, bizim milli maraqlarımız, dövlətçiliyimiz, vətəndaşların rahat yaşaması, sosial rifah və kadrlar bu məqsədlərə qulluq etməlidir".

Dövlət başçısının çıxışından aydın görünür ki, ölkədə həyata keçirilən islahatların başlıca vəzifəsi iqtisadi inkişaf və ölkə vətəndaşlarının sosial rifahına xidmət etməkdir. Son bir neçə ildə iqtisadi və sosial sahədə əldə edilən uğurlar da bu islahatlarla bağlıdır. Belə ki, 2019-cu ildə ümumi iqtisadi artım 2 faizdən çoxdur. Ancaq qeyri-neft iqtisadiyyatımız təqribən 3,5 faiz artıb. Sevindirici haldır ki, qeyri-neft sənayesində belə artım 14 faizdir, kənd təsərrüfatında isə iqtisadi artım 7 faizdən çoxdur.

11 ayın nəticələrinə görə, inflyasiya təqribən 2,6 faizdir. Bu dövrdə qeyri-neft ixracımız təqribən 14-15 faiz artıb. Xarici borc azalıb, ümumi daxili məhsulun 17 faizini təşkil edir və bu, dünyada 9-cu göstəricidir. Gələn il bu borcun 16 faizə enməsi proqnozlaşdırılır. Burada qeyd etməliyik ki, ölkəmizin valyuta ehtiyatları xarici dövlət borcundan 5 dəfə artıqdır. Bütövlükdə isə ölkənin valyuta ehtiyatları 50 milyard dollara çatıb. Sözsüz ki, bu, Azərbaycan kimi kiçik bir ölkə üçün böyük nailiyyətdir.

Prezident bütövlükdə iqtisadi sahədə uğurlar əldə olunduğunu, aparılan islahatların, o cümlədən şəffaflığın təmin edilməsinin ölkəyə fayda gətirdiyini bildirib. Beləliklə, aparılan islahatlar sayəsində vergi və gömrük orqanları bu il planda nəzərdə tutulduğundan əlavə xəzinəyə bir milyard manat vəsait köçürüblər. Yəni idarəetmədə aparılan islahatlar bu mexanizmin düzgün və şəffaf işləməsini təmin edib. Nəticə isə, göründüyü kimi, çox yüksək olub.

İqtisadi sahədə əldə edilən uğurlar əhalinin sosial rifahının yaxşılaşdırılmasına imkan verir. Bunun nəticəsində maaşların, pensiyaların, sosial müavinətlərin, tələbələrin təqaüdlərinin artırılması həyata keçirilir, yəni sosial sahədə olan bütün məsələlər kompleks şəklində həll edilir. Beləliklə, müavinətlər orta hesabla 50 faiz və ya 2 dəfə çox, minimum əməkhaqqı 2 dəfə, minimum pensiya isə 70 faizdən çox artıb.

Dövlət başçısı jurnalistlərə verdiyi müsahibədə sosial cəhətdən daha həssas olan təbəqənin, yəni məcburi köçkünlərin, şəhid ailələrinin və müharibə əlillərinin problemlərinin həllinin dövlətin əsas vəzifələrindən olduğunu bildirib. Qeyd edilib ki, ötən il məcburi köçkünlərə 5 mindən çox ev və mənzil verilib. Təqribən 25-30 min nəfər dövlətin yaratdığı bu imkandan yararlanıb. Bununla yanaşı, 800-ə yaxın şəhid ailəsi, müharibə əlili evlərlə təmin edilib. Dövlət başçısının qeyd etdiyi kimi, dünyanın heç bir ölkəsində vətəndaşa belə yüksək qayğı yoxdur.

Prezident ölkə vətəndaşlarının sosial problemlərinin daim dövlətin diqqət mərkəzində olduğunu və bunun prioritet hesab edildiyini bildirərək demişdir: "Mən qeyd etdim, hətta böhranlı illərdə biz sosial sahəyə nəzərdə tutulan vəsaiti azaltmamışıq. Çünki mən həmişə demişəm ki, iqtisadi islahatlar sosial müdafiə ilə bərabər aparılmalıdır. Bu, siyasətimizin əsas qollarıdır. Çünki bir çox hallarda, - biz bunu tarixdən də bilirik, bəzi ölkələrin təcrübəsindən də, - çox ciddi iqtisadi islahatlar sosial problemlər yaradır və biz buna qətiyyən yol verə bilmərik. Çünki bizim bütün işlərimizin məqsədində Azərbaycan vətəndaşının maraqları dayanır və ildən-ilə Azərbaycan vətəndaşı daha yaxşı yaşamalıdır".

***Rüstəm KAMAL, "Azərbaycan"***

## İdxal və ixrac rüsumlarında dəyişikliklər qeyri-neft məhsullarının təklifində canlanma yaradacaq

Nazirlər Kabinetinin "Xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri"nə dəyişiklik etməsi qeyri-neft sektorunda istehsalın həcminin artması, yerli və milli məhsulların həm daxili, həm də xarici bazarlarda rəqabətqabiliyyətli olmasına səbəb olacaq.

Hökumətin qərarında xammalların nomenklatura kodlarının tərkib hissəsinə baxdıqda məlum olur ki, ölkəmizin ağır sənayesi, o cümlədən qida sənayesinin son məhsul buraxılışının daha da artırılmasına hesablanıb.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin departament rəhbəri Nicat Hacızadə bildirir ki, qərar Azərbaycanda hazırda istehsal olunmayan və yaxın gələcəkdə də gözlənilməyən xammallara yanaşmanı özündə ehtiva edir: "Ölkəmizin qeyri-neft sənayesi son illər dinamik sürətlə artım statistikasına malikdir. Prezident İlham Əliyevin mətbuat nümayəndələri ilə görüşündə qeyd etdiyi məqamlarda ixracın artımına mane olan səbəb kimi daxili istehlakın artmasını xüsusi vurğulayıb. Təbii ki, bu, əhalinin alıcılıq qabiliyyətinin və məşğulluğunun artması ilə əlaqədar yaxşı xəbərdir. Amma ölkəmizin qeyri-neft sektoru xətti ilə yaranacaq valyuta artımına xüsusi ehtiyac var. Xarici valyuta makroiqtisadi sabitlik üçün əsas zəminlərdən biridir. Bu baxımdan idxal rüsumunun 15 faizdən 0 faizə endirilməsi bu xammallardan istifadə edən 500 müəssisənin istehsal həcmini artıracaq, son nəticədə ixrac həcminin yüksəlməsinə dəstək olacaq."

N.Hacızadənin sözlərinə görə, qərarın ixracla bağlı olan hissəsində ferroərintilər üçün ixrac rüsumun 5 faizdən 0 faizə endirilməsi ölkədə yeni istehsala başlayan müəssisələr üçün əlavə imkan yaradacaq. Rüsumun bu vaxta qədər tətbiq edilməsi daxili bazarda tələbatın çox olması ilə əlaqədardır. Artıq 2018-ci ildə Sumqayıt Kimya Sənayesi Parkındakı Ferroərintilər zavodunun tam gücü var ki, xarici bazarları təmin etsin.

## Qeyri-neft məhsullarının ixracı faktiki qiymətlərlə 15,6 faiz çoxalıb

Cari ilin on ayı ərzində Azərbaycan dünyanın 190 ölkəsi ilə ticarət əməliyyatları aparmışdır. 117 ölkəyə məhsul ixrac, 180 ölkədən idxal olunmuşdur.

Dövlət Statistika Komitəsi xəbər verir ki, gömrük orqanlarında qeydiyyatı aparılmış, lakin gömrük rəsmiləşdirilməsi tam başa çatdırılmamış ixrac olunan xam neft və təbii qazın statistik qiymətləndirilmiş dəyəri nəzərə alınmaqla yanvar-oktyabr aylarında Azərbaycanın xarici ticarət dövriyyəsinin dəyəri 27 milyard 436,7 milyon, o cümlədən ixracın dəyəri 15 milyard 981,4 milyon, idxalın dəyəri 11 milyard 455,3 milyon dollar olmuşdur ki, bu da 4 milyard 526,1 milyon dollarlıq müsbət ticarət saldosu deməkdir. Hesabat dövründə keçən ilin eyni dövrünə nisbətən xarici ticarət dövriyyəsi faktiki qiymətlərlə 3,4 faiz artmış, real ifadədə isə 1,3, o cümlədən idxal 2,8, ixrac 0,5 faiz azalmışdır.

Məlumatda daha sonra bildirilir ki, ilin əvvəlindən ötən on ay ərzində ölkə üzrə qeyri-neft-qaz məhsullarının ixracı keçən ilin eyni dövrünə nisbətən faktiki qiymətlərlə 16,5, real ifadədə isə 11,3 faiz artaraq 1 milyard 572,9 milyon dollara bərabər olmuşdur. Bu dövrdə təzə meyvə ixracı 20,1, şəkər - 45,6, meyvə və tərəvəz şirələri - 30,6, çay - 7,1, meyvə və tərəvəz konservləri - 2,3, pambıq lifi - 52,4, emal olunmamış alüminium - 29,1, polietilen - 10,1, pambıq ipliyi - 34,9, bentonit gili - 12,9, marqarin, qida üçün yararlı digər qarışıqlar - 42,2 faiz, tütünün ixracı isə 1,8 dəfə artmışdır.

Qeyri neft-qaz məhsulları üzrə ixracın dəyərində Rusiyaya, Türkiyəyə, İsveçrəyə, Gürcüstana, Ukraynaya, İtaliyaya, Çinə, Yunanıstana, Niderlanda, İrana göndərilmiş malların payı üstünlük təşkil etmişdir.

## İqtisadiyyatın qeyri-neft-qaz sektorunda 1,6 milyon nəfərdən çox adam çalışır

Cari il dekabrın 1-nə olan vəziyyətə görə, Azərbaycanda iqtisadi fəal əhalinin sayı 5 milyon 194,7 min nəfər olmuşdur. Onlardan 4 milyon 942,7 min nəfəri məşğul əhalidir.

Dövlət Statistika Komitəsinin bu barədə yaydığı məlumatda bildirilir ki, cari il noyabrın 1-i vəziyyətinə ölkədə muzdla işləyənlərin sayı 1 milyon 641 min nəfərə çatmışdır. Onların 911,4 min nəfəri iqtisadiyyatın dövlət, 729,6 min nəfəri qeyri-dövlət sektorlarında çalışmışlar. İqtisadiyyatın neft-qaz sektorunda 34,9 min, qeyri-neft-qaz sektorunda 1 milyon 606,1 min nəfər fəaliyyət göstərmişdir.

Məlumatda o da bildirilir ki, göstərilən müddətdə ölkə üzrə muzdla çalışan işçilərin 24,2 faizi məhsul istehsalı, o cümlədən 7,6 faizi tikinti, 7,5 faizi emal sənayesi, 3,3 faizi kənd və meşə təsərrüfatları, balıqçılıq, 2,1 faizi mədənçıxarma, 1,9 faizi su təchizatı, tullantıların təmizlənməsi və emalı, 1,8 faizi elektrik enerjisi, qaz və buxar istehsalı bölüşdürülməsi və təchizatı sahələrində məşğul olmuşdur.

Xidmət sektoruna gəldikdə burada işləyənlərin 20,3 faizi təhsil, 17,8 faizi ticarət, nəqliyyat vasitələrinin təmiri, 8,2 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 6,9 faizi dövlət idarəetməsi və müdafiə; sosial-təminat, 4,5 faizi nəqliyyat və anbar təsərrüfatı, 4,2 faizi inzibati və yardımçı xidmətlərin göstərilməsi, 3,4 faizi peşə, elmi və texniki fəaliyyət, 3,3 faizi istirahət, əyləncə və incəsənət, 1,7 faizi informasiya və rabitə, 1,7 faizi maliyyə və sığorta fəaliyyəti, 1,6 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,2 faizi digər sahələrdə xidmətlərin göstərilməsi və 1 faizi daşınmaz əmlakla əlaqədar əməliyyatlar sahələrində çalışmışlar.

Dövlət Statistika Komitəsi həmçinin xəbər verir ki, dekabrın 1-nə olan məlumata əsasən, ölkə üzrə məşğulluq xidməti orqanlarında 79,7 min nəfər işsiz şəxs qeydiyyata alınmışdır. 36,3 faizi qadınlar olan bu şəxslərin hər biri ayda orta hesabla 278,6 manat işsizlikdən sığorta ödənişi alır.







*Foto A.MƏMMƏDOVUNDUR*

## Bol pambıq, xoş növraq, üz ağlığı

Əvvəli 1-ci səh.

Ona görə bu ağır vəziyyətdə, demək olar ki, susuz bir vəziyyətdə belə yüksək məhsuldarlığı əldə etmək, əlbəttə, yüksək qiymətə layiqdir".

2019-cu ildə Tərtər pambıqçıları böyük uğura imza atıblar. 3427 hektar sahədə pambıq əkilib-becərilmiş, gücləndirilmiş iş rejimi ilə çalışan təsərrüfatlar nəzərdə tutulan hədəfləri dəf etmişlər. Tərtər rayonu üçün ən böyük çətinlik su ilə bağlıdır. Namərd qonşularımız hər il yaz-yay aylarında, kənd təsərrüfatı bitkilərinin suya ciddi ehtiyac duyduğu dövrdə işğal altında olan Sərsəng su anbarından Tərtər çayına gələn suyun qabağını kəsərək suni su qıtlığı yaradır, əkinlərin suvarılmasını çətinləşdirirlər. Ümid subartezian quyularına qalır. Dövlətin davamlı qayğısı Tərtər kəndlisinin su ilə bağlı çətinliklərini xeyli yüngülləşdirir. Bir qayda olaraq, hər il rayonun təsərrüfatlarında subartezian quyuları qazılıb istismara verilir. Hazırda rayon üzrə mövcud olan 531 subartezian quyusunun 150-si məhz son illərdə qazılmışdır.

Rayon pambıqçıları bu il 11924 ton məhsul tədarük etmişlər. Hər hektarın orta məhsuldarlığı 34,8 sentner olmuşdur ki, bu da ölkənin pambıqçılıq rayonları arasında qazanılan ən yüksək göstəricidir. Ayrı-ayrı fermer təsərrüfatlarının qazandığı göstərici daha yüksəkdir. Buruc kəndində İlkin Qurbanovun, Bəyimsarov kəndində 1-ci dərəcəli "Əmək" ordenli Fazil Vəliyevin, Azad Qaraqoyunlu kəndində İsmayıl Mehdiyevin rəhbərlik etdikləri fermer təsərrüfatları daha yüksək məhsuldarlığa nail olmuşlar.

Aqrar sektorun inkişafı ilə bağlı seçilən yolun doğru olması həm ölkə iqtisadiyyatının güclənməsində, həm də faydalı məşğulluğu təmin edilən kənd əhalisinin güzəranının yaxşılaşmasında özünü göstərir. Cari ilin 9 ayının yekununa görə, rayonda istehsal olunan kənd təsərrüfatı məhsullarının ümumi dəyəri 62 milyon 983 min manat (ötən ilin müvafiq dövründəkindən 8,5 milyon manat çox) təşkil etmişdir ki, bunun da 8 milyon manatı pambıqçılıqdan əldə edilən gəlirdir.

Rayonda pambıqçılığın inkişafının iqtisadi əhəmiyyəti ilə yanaşı, sosial üstünlükləri də önəmlidir. Builki mövsümdə pambıqçılıq təsərrüfatlarında çalışanların sayı 4 min nəfərə yaxın olmuşdur. Bu, özlüyündə 4 min nəfərin ailə büdcəsinə qazanc aparması deməkdir.

Bəyimsarov kəndinin 1-ci dərəcəli "Əmək" ordenli fermeri Fazil Vəliyev dedi ki, ölkəmizdə pambığa dəyişən münasibət bizim həyatımızı da köklü şəkildə dəyişmişdir. Ailələrimiz xoş güzərana qovuşmuşdur. Bu il 43,8 hektar sahədə pambıq əkmişdik. Aqrotexniki qaydalara dürüst əməl edib tarlalarda bol məhsul yetişdirməyə nail olduq. Orta hesabla hər hektardan 59,1 sentner məhsul götürdük. Qazanc gözlədiyimizdən də çox oldu. Pambıq istehsalından 168 min manat gəlir əldə etdik. Bu, keçən ildəkindən 11 min manat çoxdur. Nailiyyətdən arxayınlaşmırıq. İndi bizi gələn ilin qayğıları düşündürür. Hazırda pambıq əkəcəyimiz sahələri şumlayırıq.

Dövlət pambıqçı əməyini stimullaşdırmaq üçün qayğısını əsirgəmir. Pambıq istehsalına görə verilən subsidiya kənd əməkçilərinin bu sahəyə marağını daha da artırır.

***Lazım QULİYEV, "Azərbaycan"***

## Son bir il ərzində Gömrük Akademiyasında DGK-nın 700-dən çox əməkdaşı təlimlərdən keçib

Dövlət Gömrük Komitəsi Akademiyasının rəisi Qulu Novruzov bildirib ki, akademiyanın fəaliyyətinin bir istiqaməti də gömrük xidməti əməkdaşlarının peşəkar hazırlığının təkmilləşdirilməsi, xidmət səviyyəsinin yüksəldilməsini təmin etməkdir.

"Gömrük xidməti əməkdaşlarının peşə bacarıqlarının artırılması və göstərilən xidmət səviyyəsinin yüksəldilməsi son bir il yarım ərzində gömrük xidmətində aparılan köklü islahatların prioritet istiqaməti kimi müəyyən olunub. Azərbaycan Respublikasının gömrük xidməti əməkdaşlarının peşəkar hazırlığının artırılması, xidmət səviyyəsinin yüksəldilməsi, vətəndaş məmnunluğunun təmin olunması, tam şəffaflığın təmin edilməsi, ümumilikdə gömrük xidməti fəaliyyətinin təkmilləşdirilməsi və müasir tələblər əsasında qurulması məqsədilə Dövlət Gömrük Komitəsinin Akademiyasında 2019-cu ildə gömrük xidməti əməkdaşları üçün müxtəlif mövzuları əhatə edən çoxsaylı qısamüddətli təlim proqramları həyata keçirilib. Son bir il ərzində 700-dən artıq gömrük xidməti əməkdaşı yerli və xarici təlimçilər tərəfindən aparılan təlimlərdən keçib. Bu təlimlər Dövlət Gömrük Komitəsi, müxtəlif dövlət qurumları, həmçinin xarici və beynəlxalq tərəfdaş qurumlarından dəvət olunmuş ekspertlər tərəfindən aparılıb.

Gömrük xidməti orqanlarında aparılan islahatlardan irəli gələn çağırışlara cavab verən təlimlər Dövlət Gömrük Komitəsi Akademiyasında forma, məzmun və tədris texnologiyaları baxımından Dövlət Gömrük Komitəsi və komitənin müvafiq strukturlarının ehtiyacları nəzərə alınaraq zəruri biliklərin aşılanması üçün müxtəlif istiqamətlərdə təşkil edilir. Eyni zamanda, gömrük xidmətində əməkdaşların etik davranışları və mənəvi keyfiyyətinin əhəmiyyəti nəzərə alınaraq qeyd olunan mövzulara təlim proqramında xüsusi yer ayrılıb" deyə akademiyanın rəisi bildirib.

# Mərkəzi Seçki Komissiyasında

## QƏRAR № 24/122

### Mərkəzi Seçki Komissiyasının 23 dekabr 2019-cu il tarixli iclas protokolunun təsdiq edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci və 28.4-cü maddələrinə uyğun olaraq **qərara alır:**

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 23 dekabr 2019-cu il tarixli iclasının protokolu təsdiq edilsin.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*28.12.2019*

## QƏRAR № 24/123

### 2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə səsvermənin yeri və vaxtı barədə seçicilərin məlumatlandırılmasına dair bildirişlərin mətni, forması, sayı və hazırlanması qaydası haqqında Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 104.1-ci maddəsinə əsasən məntəqə seçki komissiyaları səsvermənin yeri və vaxtı haqqında seçiciləri xəbərdar etməlidirlər.

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının (Mərkəzi Seçki Komissiyası) 2013-cü il 5 iyun tarixli 5/28 saylı Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında keçirilən seçkilərdə (referendumda) səsvermənin yeri və vaxtı barədə bildirişlərin seçicilərə paylanması (çatdırılması) Qaydaları"nın 2.1-ci bəndinə uyğun olaraq bildirişin mətni, forması, sayı və hazırlanmasına dair tələblər Mərkəzi Seçki Komissiyasının qərarı ilə səsvermə gününə ən azı 40 gün qalmış təsdiq edilməli və müəyyən olunmuş formada və sayda poliqrafiya müəssisəsində hazırlanmalıdır.

Ona görə də seçicinin soyadı, adı, atasının adı ilə yanaşı özünün və səs verəcəyi seçki məntəqəsinin ünvanı haqqında, səsvermənin yeri və vaxtı, səsvermə prosesində istifadə edilən şəxsiyyəti təsdiq edən sənədlərin siyahısı, səsvermə qaydaları və s. bu kimi maarifləndirmə xarakterli məlumatları da özündə əks etdirən bildiriş nümunəsinin hər bir seçicinin ünvanına çatdırılması üçün respublika üzrə daimi seçici siyahılarına daxil edilmiş seçicilərin sayı nəzərə alınmaqla həmin saydan təqribən 3% artıq olmaqla Azərbaycan Respublikası Milli Məclisinin (Milli Məclis) mətbəəsində mətbəə üsulu ilə hazırlanması məqsədəmüvafiqdir.

Mərkəzi Seçki Komissiyası yuxarıda qeyd edilənləri əsas götürərək Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 25.2.6-cı, 25.2.11-ci, 28.2-ci, 28.4-cü və 104.1-ci maddələrinə və yuxarıda göstərilən Qaydaların 2.1-ci bəndinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə səsvermənin yeri və vaxtı barədə seçicilərin məlumatlandırılmasına dair bildirişin mətni və forması təsdiq edilsin.

2. Səsvermənin yeri və vaxtı barədə seçicilərin məlumatlandırılmasına dair bildirişlərin sayı 5 375 967 (beş milyon üç yüz yetmiş beş min doqquz yüz altmış yeddi) ədəd müəyyən edilərək Milli Məclisin mətbəəsində mətbəə üsulu ilə hazırlansın.

3. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*28.12.2019*

## QƏRAR № 24/124

### 2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 26 dekabr 2019-cu il tarixli 24 saylı müraciətə baxılmasına dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində Tovuz rayonu Dondar Quşçu kənd sakini Quliyev Telman Avıl oğlu və digərləri 2019-cu il dekabrın 26-da teleqramla Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) müraciət edərək səsvermə günü 104 saylı Gədəbəy - Tovuz seçki dairəsinin 51 və 52 saylı seçki məntəqələrində seçkilərin saxtalaşdırıldığını iddia etmiş, hər iki seçki məntəqəsi üzrə səsvermənin nəticələrinin ləğv edilməsini xahiş etmişlər.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (Seçki Məcəlləsi) 112-ci və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələblərinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən nəzərdən keçirilmiş, müraciətin aidiyyət qaydalarının pozulması ilə daxil olmasına dair rəy verilmiş və Mərkəzi Seçki Komissiyasının iclasında baxılmışdır.

Seçki Məcəlləsinin tələbinə görə səsvermə günü seçki məntəqələrində iddia olunan qanun pozuntuları ilə bağlı müraciətlər ilkin olaraq dairə seçki komissiyasına verilməli, həmin müraciət üzrə dairə seçki komissiyasının qəbul etdiyi qərardan, hərəkətdən (hərəkətsizlikdən) Mərkəzi Seçki Komissiyasına şikayət verilə bilər.

Seçki Məcəlləsinin 112-1.12-ci maddəsinə görə müraciət aidiyyət qaydalarının pozulması ilə daxil olmuşdursa, onda həmin müraciətin aidiyyəti üzrə göndərilməsinə dair qərar qəbul edilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1, 2, 4, 6, 7 və 8-ci bəndlərinə əsasən **qərara alır:**

1. 2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində Tovuz rayonu Dondar Quşçu kənd sakini Quliyev Telman Avıl oğlu və digərlərinin Mərkəzi Seçki Komissiyasına daxil olmuş 26 dekabr 2019-cu il tarixli 24 saylı müraciəti aidiyyəti üzrə araşdırılması üçün 104 saylı Gədəbəy - Tovuz seçki dairəsinin dairə seçki komissiyasına göndərilsin.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*28.12.2019*

## QƏRAR № 24/125

### 2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 22 saylı müraciətin araşdırılması müddətinin uzadılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 69 saylı Cəlilabad-Masallı-Biləsuvar seçki dairəsinin Ağdaş bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizədlər Cavadov Təyyar Cavad oğlu və İsmayılov Asəf Pənah oğlu Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək müraciətə əlavə etdikləri 8 və 10 saylı seçki məntəqələri üzrə məntəqə seçki komissiyasının səsvermənin nəticələrinə dair protokollarının seçki məntəqəsindən götürdükləri surətinin araşdırılmasını və müvafiq tədbir görülməsini xahiş etmişlər.

Müraciətin araşdırılması qanunvericilikdə nəzərdə tutulmuş qaydada Mərkəzi Seçki Komissiyası nəzdində ekspert qrupunun üzvünə həvalə edilmişdir.

Müraciətlə bağlı əlavə araşdırmanın zəruri olması ilə əlaqədar ekspert qrupunun üzvü tərəfindən Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-1.10-cu maddəsinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 7.8-ci bəndinə uyğun olaraq araşdırma müddətinin uzadılması barədə vəsatət qaldırılmışdır.

Vəsatət əsaslı olduğundan təmin edilməli, əlavə araşdırma aparılması üçün müraciətə baxılmasının müddəti 3 gün uzadılmalıdır.

Yuxarıda qeyd edilənləri əsas götürərək Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci və 112-1.10-cu maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 9.6-cı bəndinə əsasən **qərara alır:**

1. 2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində Mərkəzi Seçki Komissiyasına daxil olmuş 25 dekabr 2019-cu il tarixli 22 saylı müraciətin araşdırılması müddəti 3 gün uzadılsın.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*28.12.2019*

## QƏRAR № 24/126

### 2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 26 dekabr 2019-cu il tarixli 27 saylı müraciətə baxılmasına dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 51 saylı Qusar seçki dairəsindən Mucuq bələdiyyəsi üzrə qeydə alınmış namizəd Rəhimxanov Alik Süvləddin oğlu 26 dekabr 2019-cu il tarixdə Mərkəzi Seçki Komissiyasına ərizə ilə müraciət edərək səsvermə günü həmin seçki dairəsinin 41 saylı seçki məntəqəsində bəzi qanun pozuntularının baş verməsini iddia etmiş, bununla bağlı müvafiq tədbirlərin görülməsini xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (Seçki Məcəlləsi) 112-ci və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələblərinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən nəzərdən keçirilmiş, müraciətin aidiyyət qaydalarının pozulması ilə daxil olmasına dair rəy verilmiş və Mərkəzi Seçki Komissiyasının iclasında baxılmışdır.

Seçki Məcəlləsinin tələbinə görə səsvermə günü seçki məntəqələrində iddia olunan qanun pozuntuları ilə bağlı müraciətlər ilkin olaraq dairə seçki komissiyasına verilməli, həmin müraciət üzrə dairə seçki komissiyasının qəbul etdiyi qərardan, hərəkətdən (hərəkətsizlikdən) Mərkəzi Seçki Komissiyasına şikayət verilə bilər.

Seçki Məcəlləsinin 112-1.12-ci maddəsinə əsasən şikayət aidiyyət qaydalarının pozulması ilə daxil olmuşdursa, onda həmin müraciətin aidiyyəti üzrə göndərilməsinə dair qərar qəbul edilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1, 2, 4, 6, 7 və 8-ci bəndlərinə əsasən **qərara alır:**

1. 2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 51 saylı Qusar seçki dairəsindən Mucuq bələdiyyəsi üzrə qeydə alınmış namizəd Rəhimxanov Alik Süvləddin oğlunun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 26 dekabr 2019-cu il tarixli 27 saylı müraciəti aidiyyəti üzrə araşdırılması üçün həmin seçki dairəsinin dairə seçki komissiyasına göndərilsin.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*28.12.2019*

## QƏRAR № 24/127

### 2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 26 dekabr 2019-cu il tarixli 26 saylı müraciətə baxılmasına dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində Ağdam rayonu Çəmənli kənd sakini Məmmədov Asif Çərkəz oğlu 26 dekabr 2019-cu il tarixdə Mərkəzi Seçki Komissiyasına ərizə ilə müraciət edərək səsvermə günü 119 saylı Ağdam kənd seçki dairəsinin 23 və 24 saylı seçki məntəqələrində Çəmənli bələdiyyəsi üzrə seçkilərin şəffaf keçirilməməsi, həmçinin səslərin düzgün hesablanmamasını iddia etmiş, bununla bağlı müvafiq tədbirlərin görülməsini xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (Seçki Məcəlləsi) 112-ci və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələblərinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən nəzərdən keçirilmiş, müraciətin aidiyyət qaydalarının pozulması ilə daxil olmasına dair rəy verilmiş və Mərkəzi Seçki Komissiyasının iclasında baxılmışdır.

Seçki Məcəlləsinin tələbinə görə səsvermə günü seçki məntəqələrində iddia olunan qanun pozuntuları ilə bağlı müraciətlər ilkin olaraq dairə seçki komissiyasına verilməli, həmin müraciət üzrə dairə seçki komissiyasının qəbul etdiyi qərardan, hərəkətdən (hərəkətsizlikdən) Mərkəzi Seçki Komissiyasına şikayət verilə bilər.

Seçki Məcəlləsinin 112-1.12-ci maddəsinə əsasən şikayət aidiyyət qaydalarının pozulması ilə daxil olmuşdursa, onda həmin müraciətin aidiyyəti üzrə göndərilməsinə dair qərar qəbul edilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1, 2, 4, 6, 7 və 8-ci bəndlərinə əsasən **qərara alır:**

1. 2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində Ağdam rayonu Çəmənli kənd sakini Məmmədov Asif Çərkəz oğlunun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 26 dekabr 2019-cu il tarixli 26 saylı müraciəti aidiyyəti üzrə araşdırılması üçün 119 saylı Ağdam kənd seçki dairəsinin dairə seçki komissiyasına göndərilsin.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*28.12.2019*

## QƏRAR № 24/128

### 2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 25 dekabr 2019-cu il tarixli 21 saylı müraciətə baxılmasına dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 69 saylı Cəlilabad-Masallı-Biləsuvar seçki dairəsinin Ağdaş bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizədlər İsmayılov Asəf Pənah oğlu, Mirzəyev Abuzər Miri oğlu, Cavadov Təyyar Cavad oğlu, İsmayılov Rafiq Manaf oğlu, Məmmədov Nadir Murad oğlu, Hüseynov Dilavər Mədət oğlu və Vəliyev Ələddin İmaməli oğlu Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) teleqramla müraciət edərək 9 və 11 saylı seçki məntəqələrində səsvermə günü qanun pozuntularına yol verildiyini, 8 və 10 saylı seçki məntəqələrində isə məntəqə seçki komissiyasının səsvermənin nəticələrinə dair protokollarında saxtakarlığa yol verildiyini iddia edərək müvafiq tədbir görülməsini xahiş etmişlər.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (Seçki Məcəlləsi) 112-ci və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələblərinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən nəzərdən keçirilmiş, müraciətin 9 və 11 saylı seçki məntəqələrinə münasibətdə aidiyyət qaydalarının pozulması ilə daxil olduğundan aidiyyəti üzrə dairə seçki komissiyasına göndərilməsinə dair rəy verilmiş, 8 və 10 saylı seçki məntəqələrinə aid hissədə isə araşdırılma müddətinin uzadılması barədə vəsatət qaldırılmış və Mərkəzi Seçki Komissiyasının iclasında baxılmışdır.

Seçki Məcəlləsinin tələbinə görə səsvermə günü seçki məntəqələrində iddia olunan qanun pozuntuları ilə bağlı müraciətlər ilkin olaraq dairə seçki komissiyasına verilməli, həmin müraciət üzrə dairə seçki komissiyasının qəbul etdiyi qərardan, hərəkət (hərəkətsizliyindən) Mərkəzi Seçki Komissiyasına şikayət verilə bilər.

Seçki Məcəlləsinin 112-1.12-ci maddəsinə görə müraciət aidiyyət qaydalarının pozulması ilə daxil olmuşdursa, onda həmin müraciətin aidiyyəti üzrə göndərilməsinə dair qərar qəbul edilməlidir.

Seçki Məcəlləsinin 112-1.10-cu maddəsinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 7.8-ci bəndinə uyğun olaraq müraciətin əlavə araşdırılması üçün zərurət olduqda ekspert qrupunun üzvü araşdırma müddətinin uzadılması barədə vəsatət qaldırmalıdır.

Göstərilənlərə əsasən müəyyən edilir ki, müraciətin 9 və 11 saylı seçki məntəqələrinə aid hissədə aidiyyəti üzrə araşdırılması üçün dairə seçki komissiyasına göndərilməsi, 8 və 10 saylı seçki məntəqələrinə aid hissədə isə araşdırılma müddətinin uzadılması üçün hüquqi əsaslar vardır.

Yuxarıda qeyd edilənləri əsas götürərək Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci və 112-1.10-cu maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1, 2, 4, 6, 7, 8-ci və 9.6-cı bəndinə əsasən **qərara alır:**

1. 2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına daxil olmuş 25 dekabr 2019-cu il tarixli 21 saylı müraciət 9 və 11 saylı seçki məntəqələrinə aid hissədə aidiyyəti üzrə araşdırılması üçün 69 saylı Cəlilabad-Masallı-Biləsuvar seçki dairəsinin dairə seçki komissiyasına göndərilsin, 8 və 10 saylı seçki məntəqələri üzrə müraciətin araşdırılması müddəti 3 gün uzadılsın.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*28.12.2019*

## QƏRAR № 24/129

### 2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 26 dekabr 2019-cu il tarixli 28 saylı müraciətə baxılmasına dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 61 saylı Neftçala seçki dairəsindən Xol Qarabucaq bələdiyyəsi üzrə qeydə alınmış namizəd Bəndaliyev Zabil Adil oğlu 26 dekabr 2019-cu ildə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) teleqramla müraciət edərək həmin seçki dairəsinin 35 saylı seçki məntəqəsində səsvermə günü bülletenlərin sayılmamasını, protokolların yazılmamasını iddia etmiş, bu pozuntuların araşdırılmasını və bununla bağlı müvafiq tədbirlərin görülməsini xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (Seçki Məcəlləsi) 112-ci və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələblərinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən nəzərdən keçirilmiş, müraciətin aidiyyət qaydalarının pozulması ilə daxil olmasına dair rəy verilmiş və Mərkəzi Seçki Komissiyasının iclasında baxılmışdır.

Seçki Məcəlləsinin tələbinə görə səsvermə günü seçki məntəqələrində iddia olunan qanun pozuntuları ilə bağlı müraciətlər ilkin olaraq dairə seçki komissiyasına verilməli, həmin müraciət üzrə dairə seçki komissiyasının qəbul etdiyi qərardan, hərəkətdən (hərəkətsizlikdən) Mərkəzi Seçki Komissiyasına şikayət verilə bilər.

Seçki Məcəlləsinin 112-1.12-ci maddəsinə görə müraciət aidiyyət qaydalarının pozulması ilə daxil olmuşdursa, onda həmin müraciətin aidiyyəti üzrə göndərilməsinə dair qərar qəbul edilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1, 2, 4, 6, 7 və 8-ci bəndlərinə əsasən **qərara alır:**

1. 2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 61 saylı Neftçala seçki dairəsindən Xol Qarabucaq bələdiyyəsi üzrə qeydə alınmış namizəd Bəndaliyev Zabil Adil oğlunun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 26 dekabr 2019-cu il tarixli 28 saylı müraciəti aidiyyəti üzrə araşdırılması üçün həmin seçki dairəsinin dairə seçki komissiyasına göndərilsin.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*28.12.2019*

## QƏRAR № 24/130

### 2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 26 dekabr 2019-cu il tarixli 25 saylı müraciətə baxılmasına dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 61 saylı Neftçala seçki dairəsindən Xol Qarabucaq bələdiyyəsi üzrə qeydə alınmış namizədlər Əmrahov Şirin Allahbaxış oğlu və digərləri 26 dekabr 2019-cu il tarixdə Mərkəzi Seçki Komissiyasına ərizə ilə müraciət edərək səsvermə günü Dördlər kəndində 35 saylı seçki məntəqəsində səslərin sayılması prosesinin düzgün aparılmadığını iddia etmiş, bununla bağlı müvafiq tədbirlərin görülməsini xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (Seçki Məcəlləsi) 112-ci və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələblərinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən nəzərdən keçirilmiş, müraciətin aidiyyət qaydalarının pozulması ilə daxil olmasına dair rəy verilmiş və Mərkəzi Seçki Komissiyasının iclasında baxılmışdır.

Seçki Məcəlləsinin 112-1.12-ci maddəsinə görə müraciət aidiyyət qaydalarının pozulması ilə daxil olmuşdursa, onda həmin müraciətin aidiyyəti üzrə göndərilməsinə dair qərar qəbul edilməlidir.

Seçki Məcəlləsinin tələbinə görə səsvermə günü seçki məntəqələrində iddia olunan qanun pozuntuları ilə bağlı müraciətlər ilkin olaraq dairə seçki komissiyasına verilməli, həmin müraciət üzrə dairə seçki komissiyasının qəbul etdiyi qərardan, hərəkətdən (hərəkətsizlikdən) Mərkəzi Seçki Komissiyasına şikayət verilə bilər.

Yuxarıda göstərilənləri əsas götürərək Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1, 2, 4, 6, 7 və 8-ci bəndlərinə əsasən **qərara alır:**

1. 2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 61 saylı Neftçala seçki dairəsindən Xol Qarabucaq bələdiyyəsi üzrə qeydə alınmış namizədlər Əmrahov Şirin Allahbaxış oğlu və digərlərinin Mərkəzi Seçki Komissiyasına daxil olmuş 26 dekabr 2019-cu il tarixli 25 saylı müraciəti aidiyyəti üzrə araşdırılması üçün həmin seçki dairəsinin dairə seçki komissiyasına göndərilsin.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*28.12.2019*

## QƏRAR № 24/131

### 2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 23 saylı müraciətin araşdırılması müddətinin uzadılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 67 saylı Cəlilabad şəhər seçki dairəsindən Cəngan bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizəd Ağayev Qadir Hacıağa oğlu Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına yazılı müraciət edərək müraciətə əlavə etdiyi 26 saylı seçki məntəqəsi üzrə məntəqə seçki komissiyasının səsvermənin nəticələrinə dair protokolunun surətinin araşdırılmasını və müvafiq tədbir görülməsini xahiş etmişdir.

Müraciətin araşdırılması qanunvericilikdə nəzərdə tutulmuş qaydada Mərkəzi Seçki Komissiyası nəzdində ekspert qrupunun üzvünə həvalə edilmişdir.

Müraciətlə bağlı əlavə araşdırmanın zəruri olması barədə, ekspert qrupunun üzvü tərəfindən Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-1.10-cu maddəsinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 7.8-ci bəndinə uyğun olaraq araşdırma müddətinin uzadılması barədə vəsatət qaldırılmışdır.

Vəsatət əsaslı olduğundan təmin edilməli, əlavə araşdırma aparılması üçün müraciətə baxılmanın müddəti 3 gün uzadılmalıdır.

Yuxarıda qeyd edilənləri əsas götürərək Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci və 112-1.10-cu maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 9.6-cı bəndinə əsasən **qərara alır:**

1. 2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına daxil olmuş 25 dekabr 2019-cu il tarixli 23 saylı müraciətin araşdırılma müddəti 3 gün uzadılsın.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*28.12.2019*

# DSX Akademiyasında Nəsiminin 650 illik yubileyinə həsr edilmiş tədbir keçirilib









Görkəmli Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin 650 illik yubileyinə həsr edilmiş silsilə tədbirlər Dövlət Sərhəd Xidmətində (DSX) də böyük təntənə ilə təşkil olunur. Hərbi hissə və bölmələrdə keçirilən seminarlarda, ədəbi-bədii gecələrdə elm və incəsənət xadimləri, yerli icra hakimiyyəti orqanlarının və ictimaiyyətin çoxsaylı nümayəndələri iştirak edirlər.

Silsilə tədbirlər çərçivəsində Dövlət Sərhəd Xidmətinin Akademiyasında Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun şöbə müdiri, filologiya üzrə elmlər doktoru, professor Bədirxan Əhmədlinin və AMEA-nın filologiya üzrə fəlsəfə doktoru, nəsimişünas alim Səadət Şıxıyevanın iştirakı ilə mərasim keçirilib. Tədbirdə Azərbaycan xalqının ümumbəşər mədəniyyətinə bəxş etdiyi qüdrətli söz ustası, Şərqin zəngin mədəni-mənəvi sərvətləri üzərində ucalmış, bədii söz sənətinin son dərəcə qiymətli incilərini meydana gətirmiş, dərin poetik fikirləri ilə dövrün elmi-fəlsəfi düşüncələrinin ifadəçisinə çevrilmiş, adı mərdlik, fədakarlıq və iradə rəmzi kimi çəkilən dahi İmadəddin Nəsiminin həyat və yaradıcılığı barədə ətraflı məlumat verilib.

Nəsimi irsinin Azərbaycan xalqının mənəviyyat xəzinəsində layiqli yerini tutması ötən əsrin 70-ci illərində geniş fəaliyyəti sayəsində tarixi-mədəni dəyərlərimizə münasibətdə əsaslı dönüş yaratmış Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlı olması və məhz dahi öndərin təşəbbüsü ilə Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən ilk dəfə Nəsiminin 600 illik yubileyinin UNESKO-nun tədbirləri siyahısına daxil edilməsi və 1973-cü ildə beynəlxalq miqyasda qeyd edilməsi xüsusi vurğulanıb.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın qayğısı ilə 2017-ci ildə Parisdə Nəsiminin ildönümünün qeyd olunması, ötən il Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın təşəbbüsü ilə ölkəmizdə Nəsimi poeziya festivalının keçirilməsi və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzaladığı sərəncama əsasən, 2019-cu ilin ölkəmizdə "Nəsimi ili" elan olunması ölməz şairin yaradıcılığına, onun irsinə növbəti töhfə olmaqla yanaşı, bütövlükdə Azərbaycan ədəbiyyatına, mədəniyyətinə və milli-mənəvi dəyərlərimizə dövlətimiz tərəfindən göstərilən ehtiramın ifadəsi olduğu böyük minnətdarlıqla qeyd edilib.

Tədbirin sonunda Dövlət Sərhəd Xidmətinin Xüsusi Məktəbinin kursantları tərəfindən İmadəddin Nəsiminin həyat və yaradıcılığına həsr edilmiş ədəbi-bədii kompozisiya nümayiş olunub.

*"Azərbaycan"*

# Xalqa xidmətdən qürur duyanlar





**Yerləşdiyi coğrafi məkan baxımından Yevlax ölkə üçün böyük strateji əhəmiyyətə malikdir. Beynəlxalq qaz və neft kəmərlərinin, qədim şöhrətə malik İpək yolunun Yevlaxdan keçməsi böyük potensiala malik bu bölgənin önəmini daha da artırır.**

Dövlətin davamlı qayğısı Yevlaxın dinamik sosial-iqtisadi inkişafını təmin edir. Rayonda kənd təsərrüfatı məhsullarının istehsalı ildən-ilə artır, bölgə əhalisinin güzəranı getdikcə yaxşılaşır. Daim yeniləşən, müasir dövrün tələblərinə cavab verən mədəni xidmətin səviyyəsi də kifayət qədər yüksəkdir. Dövlət qayğısı rayonda mədəniyyət strukturlarının maddi-texniki bazasının yetərli səviyyədə yüksəlməsini təmin etmişdir. Bərdə Regional Mədəniyyət İdarəsinin Yevlax şəhər nümayəndəliyinin tərkibində şəbəkə üzrə Heydər Əliyev Mərkəzi, Tarix-diyarşünaslıq muzeyi, 40 klub, 45 kitabxana, 6 uşaq musiqi məktəbi fəaliyyət göstərir. Şəhər yaradıcılıq evində B.Səfəroğlu adına Xalq teatrı və Kukla teatrı öz tamaşaçılarının görüşünə hər il zəngin repertuarla gəlir. Mədəniyyət mərkəzinin nəzdində "Kür" və "Amin" vokal instrumental ansamblları, şəhər yaradıcılıq evində "Şəms" muğam qrupu, uşaq musiqi məktəblərindəki xalq çalğı alətləri ansamblları müxtəlif mədəni-kütləvi tədbirlərdə zəngin və maraqlı proqramlarla çıxışlar etməklə rayon əhalisinin zövqünü oxşayır, hər kəsdə xoş ovqat yaradır.

Yevlax şəhər nümayəndəliyinin tabeliyində olan müəssisələrdə əhaliyə göstərilən mədəni xidmətin səviyyəsinin yüksəldilməsi istiqamətində ardıcıl və məqsədyönlü tədbirlər görülür. Ölkə Prezidenti İlham Əliyevin müvafiq fərman və sərəncamlarından irəli gələn vəzifələrin, Mədəniyyət Nazirliyinin tapşırıq və göstərişlərinin icrasına məsuliyyətli münasibət müsbət nəticənin qazanılmasında mühüm rol oynayır. Əlamətdar tarixi günlərə, dövlət bayramlarına, yubileylərə həsr edilən tədbirlər ideya səviyyəsi, bədii qoyuluşu ilə də diqqət çəkir.

Bu gün Yevlax uşaq musiqi məktəblərində 400 müəllim 1396 şagirdə təhsil verir. Uşaq musiqi məktəblərinin şagirdləri Mədəniyyət Nazirliyi tərəfindən keçirilən bütün müsabiqə və festivallarda bir qayda olaraq uğurla çıxış edirlər. 2019-cu ilin mayında Təhsil Nazirliyi və Bakı Musiqi Akademiyasının təşkilatçılığı ilə keçirilən I Beynəlxalq Caz festivalında Yevlax yetirmələri uğurlu çıxışlarına görə xüsusi sertifikat və diploma layiq görülmüşlər. Bu ilin mayında Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının təşkilatçılığı ilə keçirilən gənc musiqiçilərin respublika festivalında Xaldan kənd uşaq musiqi məktəbinin şagirdi Sevda Feyzullayeva müsabiqənin qalibi olmuşdur. İyunun 23-də B.Səfəroğlu adına Xalq teatrı Bakı şəhərində uğurlu çıxışına görə xalq teatrlarının III Respublika festivalında üçüncü yer qazanmışdır. Kukla teatrı festivalda fərqləndiyinə görə Mədəniyyət Nazirliyinin diplomuna layiq görülmüşdür. Xalq teatrının aktrisası Aynur Mustafayeva festivalın ən yaxşı aktrisası nominasiyası üzrə qalib olmuşdur.

Prezident İlham Əliyevin "Böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyinin qeyd edilməsi haqqında" və 2019-cu ilin "Nəsimi ili" elan edilməsi ilə bağlı sərəncamları ilə əlaqədar nümayəndəliyin tərkibində olan mədəniyyət müəssisələrində çoxsaylı mədəni-kütləvi tədbirlər keçirilmişdir. Şəhər yaradıcılıq evində dünya ədəbiyyatının incilərindən olan böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyinə həsr olunmuş "Gərçi bu gün Nəsimiyəm, Həşimiyəm, Qureyşiyəm, bundan uludur ayətim, ayəti şanə sığmazam", Heydər Əliyev mərkəzində "Nəsimi 650", Tarix-diyarşünaslıq muzeyində "Məndə sığar iki cahan, mən bu cahana sığmazam" və mərkəzi şəhər kitabxanasında "Qüdrətli söz ustadı" adlı mədəni-kütləvi tədbirlər keçirilmişdir.

Hərbi vətənpərvərlik mövzusu nümayəndəliyin fəaliyyətində əsas istiqamətlərdəndir. Elə bayram, əlamətdar gün olmur ki, Yevlaxın mədəniyyət işçiləri ərazidə yerləşən hərbi hissələrə səfər etməsinlər. Əsgər və zabitlərə təqdim olunan musiqi ərməğanı orduda döyüş ruhunun yüksəlməsinə yetərincə əhəmiyyətli təsir göstərir. Milli ordunun yaranmasının 101 illiyi ilə əlaqədar "N" saylı hərbi hissədə "Ordum varsa, yurdum var!" adlı ədəbi-bədii kompozisiyanın uğurlu təqdimatı qəhrəman əsgərlərimizdə xoş ovqat yaşatmışdır.

Bərdə Regional Mədəniyyət İdarəsinin Yevlax şəhər nümayəndəsi Rafiq Məmmədov söhbət zamanı dedi:

- Uğurlarımız, nailiyyətlərimiz nə qədər böyük olsa da, o, heç kəsdə arxayınçılıq yaratmır. Öz xalqına xidmət etmək şərəfli və qürurvericidir. İndi yenə qayğılarımız çoxdur. Qarşıdan yeni il gəlir. Yeni il şənliklərinin rəngarəng, maraqlı keçirilməsi üçün hazırlıq işlərinə start verilmişdir. Öz ənənələrinə sadiq qalan mədəniyyət işçilərinin məqsədi Yevlax əhalisinə, eləcə də şəhərimizin qonaqlarına maraqlı yeni il sürprizləri təqdim etmək, hər yerdə bayram ovqatı yaratmaqdır.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***

## "AzerGold" QSC-nin Korporativ Sosial Məsuliyyət Komitəsi Daşkəsəndə sakinlərlə görüşüb



"AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin (QSC) Korporativ Sosial Məsuliyyət Komitəsinin nümayəndələri 26 dekabr tarixdə Daşkəsən rayonunda səfərdə olub. Cəmiyyətin Çovdar filiz emalı sahəsinin yaxınlığında yerləşən Quşçu və Çovdar kəndlərində sosial ehtiyacların müəyyənləşdirilməsi məqsədilə Daşkəsən Rayon İcra Hakimiyyətinin nümayəndəsi və bələdiyyə sədrinin də iştirakı ilə sakinlərlə görüş keçirilib. Hər iki kəndin orta məktəblərində təşkil edilən görüşlərdə çıxış edən komitənin sədri, "AzerGold" QSC-nin sədr müavini Xəyyam Fərzəliyev cəmiyyətin sosial siyasəti və bu istiqamətdə görülən işlər barədə geniş məlumat veriblər. X.Fərzəliyev yerli əhali və icmalarla iş prioritetləri çərçivəsində gələn ildə də bir neçə layihənin həyata keçiriləcəyini bildirib.

Daha sonra kənd sakinlərinin sosial problemlərlə bağlı çıxış və təklifləri dinlənilib, yeni təşəbbüslərlə bağlı fikir mübadiləsi aparılıb. Komitə sədri müraciətlərin hərtərəfli araşdırılması və müvafiq addımların atılması üçün tapşırıq və tövsiyələrini verib.

Qeyd edək ki, cəmiyyətin KSM siyasətinin tətbiqinin əsas məqsədi əhalinin həssas hədəf qruplarına yönəlmiş təşəbbüslər və layihələr vasitəsilə ölkədə sosial və dayanıqlı inkişafa dəstək verməkdir. KSM komitəsinin nümayəndələri sosial ehtiyacların hərtərəfli araşdırılması üçün kənd sakinləri arasında vaxtaşırı sorğular təşkil edir və aztəminatlı ailələrin həyat şəraiti ilə yaxından tanış olmaq məqsədilə onlarla mütəmadi olaraq görüş keçirir, evlərinə baş çəkirlər.

Bu günə qədər "AzerGold" QSC tərəfindən vətəndaş müraciətləri əsasında çoxsaylı maddi yardımlar edilib. Kənd sakinlərinin təşəbbüsü ilə Çaykənd kəndində yeni su xətti çəkilib, Çovdar kənd orta məktəbi zəruri tədris avadanlıqları və sürətli internet cihazları ilə təchiz edilib. "AzerGold" QSC Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyi ilə əməkdaşlıq çərçivəsində "Fərdi aqrar təsərrüfatların iqlim dəyişikliklərinə adaptasiyası" mövzusunda 100 nəfər fərdi sahibkarın iştirakı ilə Bakıda və Naxçıvanda təlimlər təşkil edib. Bu günə qədər Çovdar filiz email sahəsinin ətraf ərazilərində 8000-dən artıq ağac və kol əkilib. Həmçinin IDEA İctimai Birliyinin dəstəyi ilə bu il Çovdar yatağının ərazisində 100 min ədədlik palıd tingliyi salınıb.

"AzerGold" QSC maddi-mədəni irsin nümunələrinin qorunması və təbliği istiqamətində də müvafiq addımlar atır. Belə ki, Çovdar yatağı ərazisində aparılan tikinti işləri zamanı aşkarlanan qədim məzarlıqların öyrənilməsi üçün Heydər Əliyev Fondunun dəstəyi ilə bu ilin fevral ayında cəmiyyət müvafiq qurumlara müraciət etmiş və ərazidə geniş arxeoloji tədqiqatların aparılmasını təmin etmişdir. 5 ay davam edən qazıntılar zamanı 156 qəbir və 6000-dən çox eksponat aşkarlanmış və tədqiq edilməsi üçün müvafiq şərait yaradılmışdır. Heydər Əliyev Fondunun təşəbbüsü ilə "Sənaye öhdəlikləri: arxeologiya və mədəni irsə töhfə" mövzusunda keçirilən beynəlxalq simpozium çərçivəsində görülən işlər və maddi-mədəni irs nümunələri geniş ictimaiyyətə təqdim edilib. Tapıntılardan ibarət xüsusi ekspozisiya Daş Salnamə muzeyində hazırda da sərgilənir.

*"Azərbaycan"*

# "Mənəvi dəyərlər sistemində Nəsimi fenomeni" mövzusunda konfransın materialları çap olunub

Azərbaycan İlahiyyat İnstitutu (AİI) və Mənəvi Dəyərlərin Təbliği Fondunun (MDTF) birgə keçirdiyi "Mənəvi dəyərlər sistemində Nəsimi fenomeni" mövzusunda konfransın materialları dərc olunub.







Bununla bağlı keçirilən tədbiri giriş nitqi ilə açan AİI rektoru Ceyhun Məmmədov bildirib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin görkəmli şair və mütəfəkkir İmadəddin Nəsiminin Azərbaycan dili və ədəbiyyatının inkişafında müstəsna xidmətlərinə görə 2019-cu ilin "Nəsimi ili" elan olunması haqqında 11 yanvar 2019-cu il tarixli sərəncam imzalaması və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü ilə böyük mütəfəkkirin yubileyi ilə əlaqədar bir gündə 650 min ağacın əkilməsi dövlətimiz tərəfindən ədibə verilən dəyərin, hörmət və ehtiramın ən yüksək göstəricisidir.

C.Məmmədov bildirib ki, institut yarandığı gündən öz fəaliyyətində milli-mənəvi dəyərlərimizin təbliğinə, tələbələrdə vətənpərvərlik ruhunun, vətənə sevginin və ona bağlılığın gücləndirilməsinə, tanınmış Azərbaycan mütəfəkkirlərinin həyat və yaradıcılığının öyrənilməsinə xüsusi önəm verir.

AİI rektoru keçirilən konfransın materiallarının çap edilməsinin nəsimişünaslar üçün böyük əhəmiyyətə malik olacağına ümidvar olduğunu bildirib.

MDTF-nin icraçı direktoru Mehman İsmayılov qeyd edib ki, Prezident İlham Əliyev tərəfindən "Nəsimi ili"nin elan olunması bütövlükdə Azərbaycan mədəniyyətinin, onun əsas elementləri olan dilimizin, ədəbiyyatımızın və mənəviyyatımızın əbədiləşdirilməsinə xidmətin bariz nümunəsidir.

M.İsmayılov daha sonra bildirib ki, Ulu Öndər Heydər Əliyevin xalqımızın milli-mənəvi və mədəni irsinin inkişafı sahəsindəki fəaliyyət istiqamətlərini hazırda Prezident cənab İlham Əliyev uğurla davam etdirir.

M.İsmayılov "Nəsimi ili" çərçivəsində fond tərəfindən görülən işlər haqqında məlumat verib. Bildirib ki, mütəfəkkirin 650 illik yubileyinin dövlət səviyyəsində qeyd olunması gənclərimizin Azərbaycan mədəniyyətini, onun milli-mənəvi dəyərlərini öyrənməsi baxımından olduqca əhəmiyyətlidir.

AMEA-nın Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru Səadət Şıxıyeva bildirib ki, islam irfan ədəbiyyatının ən qüdrətli nümayəndələrindən biri olan Nəsimi poeziyada fəlsəfi fikrin təməlini qoyanlardan biridir. Nəsimi yaradıcılığında sufizmin mahiyyətinin qabarıq nəzərə çarpdığını qeyd edən Səadət Şıxıyeva dahi mütəfəkkirin Azərbaycan poetik dilinin inkişafına böyük təsirini vurğulayıb.

AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Erkən yeni dövr Azərbaycan ədəbiyyatı şöbəsinin müdiri filologiya elmləri doktoru Mahirə Quliyeva qeyd edib ki, Nəsimi Azərbaycan ədəbiyyatında ana dilində yaranan şeirin şəkli xüsusiyyətlərinin təkmilləşdirilməsində mühüm rol oynayıb. Dahi şairin əruz vəzninin müxtəlif bəhrlərində və müxtəlif şəkillərində ana dilində şeirlər yazdığını vurğulayan M.Quliyeva Nəsiminin əruz vəzninin bəhrlərini Azərbaycan dilinin xüsusiyyətlərinə uyğunlaşdırmağa çalışdığını da nəzərə çatdırıb.

AMEA N.Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin Komparativistika və bədii tərcümə şöbəsinin müdiri, filologiya elmləri doktoru, professor Şəfəq Əlibəyli İmadəddin Nəsiminin tərəqqipərvər ictimai-fəlsəfi ideallarla zəngin yüksək bədii estetik səviyyəyə malik poeziyasından bəhs edib.

AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun baş elmi işçisi, filologiya elmləri doktoru Ataəmi Mirzəyev klassik irsin tədrisi, nəşri və təbliği ilə əlaqədar görüləcək işlər barədə məlumat verib. Qeyd edib ki, klassikləri yeni nəslə tanıtdırmaq, sevdirmək, təbliğ etmək üçün onların irsinin nəşrində yeni forma və üsullar lazımdır.

Şərqşünas-yazar, nəsimişünas Vüsal Hətəmov Nəsimi fəlsəfəsi, poeziyası və yaşadığı tarixi dövr haqqında danışıb. Nəsimi fəlsəfəsində əks olunan kamil insan konsepsiyası haqqında geniş bəhs edib.

Tədbir mövzu ətrafında müzakirələrlə davam edib.

***Xəyalə MURADLI,***
***"Azərbaycan"***

# İlahiyyat İnstitutunun tələbələri Katolik Kilsəsini ziyarət ediblər



Azərbaycan İlahiyyat İnstitutunun (AİI) I kurs tələbələri "Müqəddəs Bakirə Məryəmin Məsum Hamiləliyi" Katolik Kilsəsini ziyarət ediblər.

Tələbələrə bu kilsə və ümumilikdə Azərbaycanda xristianlıq tarixi haqqında məlumat verilib. Diqqətə çatdırılıb ki, ölkəmiz müstəqilliyini bərpa etdikdən sonra bütün dini icmalara bərabər şərait yaradıldığı kimi, Azərbaycanın katolik icmasına da qayğı göstərilir və katoliklər üçün kilsə yenidən bərpa olunub.

Daha sonra bildirilib ki, "Müqəddəs Bakirə Məryəmin Məsum Hamiləliyi" Katolik Kilsəsinin tikintisi 2007-ci ilin fevralında yekunlaşıb. Burada eyni vaxtda 250-300 nəfərin ibadət etməsi üçün şərait yaradılıb. Kilsənin rəsmi açılış mərasimi isə Vatikanın dövlət katibi, kardinal Tarçizio Bertonenin 2008-ci ilin martında Azərbaycana səfəri çərçivəsində baş tutub. Tədbirdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev, Birinci vitse-prezident xanım Mehriban Əliyeva, Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə, Rus-Pravoslav Kilsəsinin Bakı və Azərbaycan yeparxiyasının arxiyepiskopu Aleksandr İşein, aparıcı dini icmaların rəhbərləri, diplomatik korpusun nümayəndələri, xarici qonaqlar iştirak ediblər. Eyni zamanda 2007-ci ilin aprelində Roma-Katolik Kilsəsinin Cənubi Qafqaz üzrə apostol nunsisi arxiyepiskop Klaudio Qudjerottinin yeni kilsəni təqdir etdiyi və ilk ibadətin həyata keçirildiyi qeyd olunub.

Mərasimdə Azərbaycan Respublikası Katolik Kilsəsinin Apostol Prefekturası Dini Qurumunun təmsilçisi Yozef Marek xristianların inanc əsasları və ibadətləri, Azərbaycanda xristian icmalarının vəziyyəti, dini tolerantlıq və multikulturalizm kontekstində ölkəmizdə fərqliliklərin birlikdə yaşama təcrübəsi mövzularında tələbələrin suallarını cavablandırıb.

***Xəyalə MURADLI,***
***"Azərbaycan"***



# DÜNYA



## Münaqişə

**Bir neçə gündür Liviyanın paytaxtı Trablis uğrunda şiddətli döyüş gedir. Şəhərdə qərar tutmuş milli barışıq hökumətinin (MBH) qoşunları ilə qiyamçı "Liviya milli ordusu" (LMO) arasında qarşıdurmanın nəticələri təkcə paytaxtın yox, həm də ölkədə hakimiyyətin taleyini həll edəcək. Münaqişə tərəfləri hərbi əməliyyatların gedişi barədə ziddiyyətli məlumatlar verir.**



# Liviya paytaxtı uğrunda həlledici döyüş

### Legitim hökumət qiyamçılarla ölüm-dirim mübarizəsi aparır

LMO iddia edir ki, Trablisin cənub ətrafında geniş əraziyə nəzarəti bərqərar etmiş, o cümlədən çoxdandır işləməyən beynəlxalq hava limanını tutmuşdur və hazırda şəhərin mərkəzinə doğru hücumu inkişaf etdirir. "Əl-Ərəbiyyə" telekanalı LMO komandanlığının bəyanatına istinadən xəbər verir ki, qiyamçılar Trablisin mərkəzinə aparan mühüm yollara nəzarəti ələ keçirmiş, MBH-nin qoşunları isə mövqelərindən geri çəkilmiş, bu qoşunların bir çox döyüşçüləri əsir götürülmüşdür.

LMO-nun rəsmi nümayəndəsi Əhməd Mismari telekanala bildirmişdir ki, MBH-nin geri çəkilən dəstələri hazırda Trablisin yaşayış məhəllələrində toplaşmışdır. O əlavə etmişdir ki, LMO-nun elit bölmələri paytaxtın əsas rayonları uğrunda döyüşə girməyə hazırlaşır. Mismari qeyd etmişdir ki, "hazırkı mərhələdə daha taktiki fasilə olmayacaq, yaxın saatlarda baş verəcək hadisələr bütün liviyalıları təəccübləndirəcək".

Öz növbəsində MBH iddia edir ki, onun tabeliyindəki silahlı birləşmələr Trablis ətrafında uğurlu əks-hücumu davam etdirir. "Anadolu" agentliyi MBH-nin "Qəzəb vulkanı" şərti adı altında keçirdiyi əməliyyatın qərargahına istinadən xəbər verir ki, hökumət qoşunları Trablis beynəlxalq hava limanına gedən magistral yola nəzarəti bərpa etməyə müvəffəq olmuşdur. Qərargahın mətbuat katibi Məhəmməd Məcəinin dediyinə görə, MBH-nin qoşunları LMO-nun 10 silahlısını əsir götürmüş, həmçinin düşmənin üç hərbi nəqliyyat vasitəsini sıradan çıxarmışdır.

Məlum olduğu kimi, 2011-ci ildə Liviyada Müəmmər Qəzzafi rejimi devrildikdən sonra müxtəlif qruplaşmalar arasında hakimiyyət uğrunda mübarizə başlamışdır. Münaqişə indiyədək davam edən vətəndaş müharibəsinə gətirib çıxarmış və ölkədə faktiki olaraq ikihakimiyyətlilik bərqərar olmuşdur. Qan axıdılmasını dayandırmaq üçün BMT-nin dəstəyi ilə Faiz Sərracın rəhbərliyi altında milli barışıq hökuməti yaradılmışdır. Ölkənin şərqində - Tobruq şəhərində isə başqa bir hakimiyyət - Nümayəndələr Palatası (parlament) özünü əsl iqtidar hesab edir və MBH-nin siyasəti ilə razılaşmır.

Tobruqdakı parlament istefada olan general Xəlifə Həftəri "Liviya milli ordusu"nun komandanı təyin etmişdir. Həftər LMO-ya rəhbərlik edəndən bəri ölkənin şərqində və cənubunda xeyli ərazini, o cümlədən bir neçə iri neft yatağını nəzarət altına almışdır. Qiyamçı general bu il aprelin 4-də paytaxt Trablis istiqamətində hücuma keçmişdir. Öz növbəsində MBH nəzarət etdiyi bölgələrdə hərbi səfərbərlik elan edərək paytaxtın müdafiəsinə qalxmışdır.

Cəmi üç gün əvvəl MBH ölkəyə hərbi yardım göstərmək üçün Türkiyəyə rəsmən müraciət etmişdi. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan müraciətə dərhal reaksiya verərək bildirmişdi ki, Türkiyə Böyük Millət Məclisi gələn ay Liviyaya qoşun göndərmək məsələsini səsə qoyacaq. O əlavə etmişdi ki, müvafiq qərar yanvarın 8-də, yaxud 9-da qəbul olunacaq. Ərdoğan vurğulamışdı ki, Türkiyə hökuməti beynəlxalq birliyin tanıdığı MBH-yə hər cür dəstək vermək niyyətindədir.

Lakin srağagün MBH gözlənilmədən Türkiyənin Liviyaya hərbi müdaxiləsinə qarşı çıxmışdır. Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Məhəmməd Qəblavi Almaniyanın "Die Welt" qəzetinə müsahibəsində bildirmişdir ki, "mərkəzi hökumət Liviya torpağında əcnəbi əsgər qəbul etməyəcək". O əlavə etmişdir ki, münaqişənin tənzimlənməsində beynəlxalq vasitəçi kimi Almaniyanı görmək istərdi.

Liviyada, xüsusilə Trablis ətrafında yaranmış vəziyyət həqiqətən gərgindir. Paytaxt tezliklə LMO-nun əlinə keçə bilər. Qiyamçı generalı Rusiya, Fransa, Misir və Birləşmiş Ərəb Əmirlikləri dəstəkləyir. Vaxtilə ABŞ da Həftərin tərəfində idi. Lakin bu ilin sentyabrında Rusiyanın Liviyada vəziyyətə hərbi müdaxiləsi barədə xəbərlər yayıldıqdan sonra Vaşinqton mövqeyini dəyişdirmişdir. Ötən ay ABŞ-ın Liviyadakı səfiri Riçard Norlandın başçılıq etdiyi nümayəndə heyəti Həftərin nəzərinə çatdırmışdır ki, Trablisə hücumu dayandırmaq lazımdır. Amerikalı diplomatlar bildirmişdilər ki, ABŞ Rusiyanın Liviya münaqişəsindən öz maraqları naminə istifadə etməsindən narahatdır. MBH-yə isə Türkiyə, İtaliya və Qətər rəğbət bəsləyir. LMO-ya müttəfiqləri real kömək göstərdiyi halda MBH heç bir xarici dövlətdən hərbi yardım almır.

Lakin Rusiya Liviya münaqişəsinə müdaxilə etmədiyini bildirir, halbuki həm Rusiya mediası, həm də beynəlxalq KİV dəfələrlə xəbər vermişdir ki, Rusiyanın "Vaqnerin özəl hərbi şirkəti"nin döyüşçüləri Liviyadadırlar və LMO-nun tərəfində hərbi əməliyyatlarda iştirak edirlər. Ötən ayın axırlarında ABŞ Dövlət Departamenti rusiyalı hərbiçiləri və muzdluları Liviyada sabitliyi pozmaqda ittiham etmişdir. Rusiya muzdlularının Liviyada vuruşduğunu Türkiyə Prezidenti də dilə gətirmişdir. Onun dediyinə görə, Rusiyanın "Vaqner" adlı mühafizə şirkəti var və onun əməkdaşları Liviyaya göndərilmişlər. Lakin Moskva bütün bu bəyanatları rədd edir, hətta "Vaqner qrupu"nun mövcudluğunu inkar edir.

Gələn ay Almaniyanın paytaxtı Berlində Liviya münaqişəsinin nizamlanmasına dair beynəlxalq konfransın keçirilməsi nəzərdə tutulmuşdur. Amma Liviya paytaxtının taleyi konfransdan qabaq həll olunsa, Berlində beynəlxalq foruma ehtiyac qalmayacaq.

***Allahverdi MEHDİYEV,***
***"Azərbaycan"***

## Miqrasiya

# 580 mindən çox suriyalı qaçqın vətənə qayıdıb



Suriyada "Fərat qalxanı", "Zeytun budağı" və "Sülh bulağı" əməliyyatları rayonlarına könüllü olaraq 580 mindən çox qaçqın qayıtmışdır. Bu barədə Türkiyə Milli Müdafiə Nazirliyi məlumat vermişdir.

Türkiyədə və onun hüdudlarından kənarda ilin əvvəlindən bəri 1789 terrorçu zərərsizləşdirilmiş, 255 ekstremist silahı yerə qoyub təslim olmuşdur. Bu müddətdə 150 antiterror əməliyyatı keçirilmişdir ki, onlardan 31-i genişmiqyaslıdır. Antiterror əməliyyatları çərçivəsində 1066 əldəqayırma partlayıcı qurğu məhv edilmiş, 1015 ədəd silah, 69 raket, 1598 əl qumbarası və 174 mina müsadirə olunmuşdur.

Digər tərəfdən, cari ayın 15-dən 25-dək İdlibdəki gərginliyin azaldılması zonasından 235 mindən çox suriyalı ev-eşiyini tərk etmişdir. BMT-nin Humanitar Məsələlərin Əlaqələndirilməsi İdarəsinin verdiyi məlumata görə, Bəşşar Əsəd və Rusiya qüvvələrinin hücumları fonunda ölkənin şimal-qərbində vəziyyət pisləşmişdir. Əhali İdlibin cənubunu, xüsusilə Məərrə ən-Numan şəhərini və onun ətrafını tərk edir. Suriyalılar şimala, Türkiyə ilə sərhədə qaçırlar. Məcburi köçkünlərin ərzaq, dərman və isti geyimə ehtiyacı var.

Hüquq müdafiəçilərinin məlumatına görə, iki həftə ərzində baş vermiş döyüşlər nəticəsində 86 dinc sakin həlak olmuşdur.

## Sağlamlıq

# 16 saatlıq oruc bir çox xəstəlikləri sağaldır



Amerikalı alimlər belə bir qənaətə gəlmişlər ki, 16-18 saat ərzində qidadan imtina, yaxud birgünlük oruc ömrü uzadır və bir çox xəstəliklərin qarşısını alır. "New England" tibb jurnalında dərc olunan məqalədə qeyd olunur ki, bu qidalanma sxeminə riayət edənlərin həyat keyfiyyəti yaxşılaşmış və ömrü uzanmışdır. Oruc və qidadan 16-18 saat imtina piylənmədən, diabetdən və ürək-damar xəstəliklərindən əziyyət çəkənlərə tövsiyə olunur.

Adamlar və heyvanlar üzərində aparılmış təcrübə göstərmişdir ki, müəyyən vaxt ərzində qida qəbul etməmək metabolizmi yaxşılaşdırır, hüceyrələri yeniləyir, təzyiqi və çəkini azaldır, insulinin səviyyəsini normallaşdırır.

## Ekologiya

# İlin iqlim yekunları

### A.QUTERRİŞ: "Biz təbiətlə müharibəyə son qoymalıyıq"

Bu günlərdə BMT-nin Baş katibi Antoniu Quterriş İspaniyanın paytaxtı Madriddə keçirilmiş iqlim üzrə beynəlxalq görüşdə xəbərdarlıq etmişdir ki, istixana qazlarının tullantılarını artırmaqla bəşəriyyət geriyə qayıdışı olmayan nöqtəyə yaxınlaşır.

O, iqlim fəlakətinin qarşısını almaq üçün bütün ölkələri mövcud imkanlardan istifadə etməyə çağırmışdır. "Onilliklər ərzində adamlar planetlə döyüşüblər və indi o, cavab zərbəsi endirir. Biz geriyə qayıdışı olmayan nöqtəyə doğru hərəkət edirik, lakin bu yoldan dönmək hələ də gec deyil. Biz dərin quyudayıq, ancaq hələ də onu qazmaqda davam edirik" deyə Baş katib qeyd etmişdir.

A.Quterriş vurğulamışdır ki, "iqlim dəyişikliyi artıq uzaq gələcəyin problemi deyil. O, artıq bu gün bəşəriyyətə təhlükə yaradır".

Bu arada bütün dünyanı təmsil edən 11 min alim iqlimlə bağlı fövqəladə vəziyyət elan etmişdir. Alimlər xəbərdarlıq edirlər ki, "biz qlobal istiləşmə prosesini daha da sürətləndirəcək kritik dönüş anlarına yaxınlaşırıq".

Qrenlandiyada buzlaqlar heç vaxt indiki qədər sürətlə əriməmişdir, eyni zamanda Antarktida çox böyük həcmdə buz itirir. Ümumilikdə okeanlarda əriyən bütün bu buz dənizin səviyyəsini qaldıra bilər. Nəticədə ən yaxın gələcəkdə sahilyanı şəhərlər daşqınlarla üzləşəcək.

Bütün dünyada biomüxtəlifliyin itirilməsi kritik səviyyəyə çatır. Son 50 il ərzində təkcə Şimali Amerikada quşların sayı 3 milyarddan çox azalmışdır. Son beş il bütün müşahidə tarixi boyu ən isti illər olmuşdur. İndiyədək bəşər tarixində dənizin səviyyəsi bu cür yüksək olmamışdır. Həm quruda, həm də dənizdə flora və faunaya qarşı döyüş aparılır. Tez-tez baş verən təbii fəlakətlər daha güclü və dağıdıcıdır. Onlar insan və maliyyə itkilərinə səbəb olur. Dünyanın bəzi yerlərində tez-tez quraqlıq baş verir, nəticədə adamlar yerlərini tərk edir və aclığa düçar olurlar. İqlim dəyişikliyi ilə əlaqədar havanın çirklənməsindən hər il 7 milyon adam həlak olur.

BMT başçısı hesab edir ki, təbiətə qarşı müharibəni dayandırmaq hələ də gec deyil. Alimlər böhranın aradan qaldırılması üçün yol təklif edirlər və müvafiq texnologiyalar artıq mövcuddur.

Bu arada "Time" jurnalı iqlim və ekologiya uğrunda mübarizədə dünya gəncliyini birləşdirmiş Qreta Tunberqi "İlin adamı" seçmişdir.



## İraqda hərbi baza atəşə tutuldu

İraqın şimalında yerləşən Kərkük şəhərindəki K1 hərbi bazasına azı 8 raket atılmışdır. Bu barədə "əl-Suməriyyə" telekanalı xəbər verir.

Məlumata görə, amerikalı və iraqlı əsgərlərin olduğu bazanın atəşə tutulması nəticəsində anbarlar yanmışdır. Bir amerikalı təlimatçı həlak olmuş, bir neçə amerikalı və iraqlı hərbçi yaralanmışdır.

İraq təhlükəsizlik qüvvələri hərbi bazanın yaxınlığında reaktiv yaylım atəşi qurğusu aşkar etmişdir.

Hücuma görə məsuliyyəti hələ ki heç kim üzərinə götürməmişdir.

## Əfqanıstanda bomba partladı

Əfqanıstanın Uruzqan əyalətində bomba partlaması nəticəsində 3 nəfər həlak olmuş, 3 nəfər yaralanmışdır. Bu barədə TRT telekanalı xəbər verir.

Uruzqan qubernatorunun müavini Səid Nasir Sadatın dediyinə görə, üç dinc sakin Trinkot şəhərində minalanmış motosiklin partlaması nəticəsində həlak olmuşdur. Yaralananlar arasında əyalət səhiyyə şöbəsinin başçısı da var.

Hücuma görə hələ ki heç bir qruplaşma məsuliyyəti üzərinə götürməmişdir.

## Havayda 6 turisti daşıyan helikopter yoxa çıxdı

Havayın Kauai adasında 6 turist və pilot yoxa çıxmışdır. ABŞ sahil mühafizəsi helikopterin və adamların axtarışını təşkil etmişdir. Bu barədə "BBC News" telekanalı xəbər verir.

İlkin məlumata görə, helikopter Napali rayonunda əlverişsiz hava şəraitinə düşmüşdür. Soyuq hava cəbhəsi oraya leysan yağışı və güclü külək gətirmişdir.

Qeyd olunur ki, yoxa çıxanlardan ikisi uşaqdır. Turistlərin milliyyəti barədə məlumat verilmir.

Kauai Havayda ən qədim adadır. Onun ərazisinin 80 faizində yaşayış yoxdur. Ada özünün təbii parkı ilə tanınır.

## İkiqat olimpiya medalçısı həbs edildi

Tailandda polis reydi zamanı Pekin və Londonda keçirilmiş Yay Olimpiya Oyunlarının velosiped idmanı yarışlarının iştirakçısı, ikiqat bürünc mükafatçı Mark Rayyan həbs edilmişdir. Bu barədə yerli KİV xəbər verir.

Yeni Zelandiyalı yerli idman klublarının birində qanunsuz olaraq məşqçilik etməkdə ittiham olunur. 37 yaşlı veteranı cərimə və ölkədən deportasiya gözləyir. Rayyan Banqkokun immiqrasiya mərkəzinə köçürülmüşdür.

Xatırladaq ki, Rayyan iki olimpiada medalından başqa, həm də dünya çempionatlarında bir qızıl və üç bürünc medal qazanmışdır.

## Qarşıdurma

# Dini etiqad haqqında qanun Monteneqronu qarışdırdı

### Siyasi müxalifət və narazı kütlə iqtidara qarşı birləşdi

Monteneqro parlamenti dini etiqad və dini icmaların hüquqi vəziyyəti haqqında qanun qəbul etmişdir. Sənədə qanunvericilik orqanında baxılması ictimai narazılığa səbəb olmuş, barışmaz siyasi rəqibləri birləşdirmişdir.




Qəbul olunmuş qanun Serb Pravoslav Kilsəsinin (SPK) mülkiyyətinin müsadirə olunmasını nəzərdə tutur. Söhbət 650-dən çox məbəddən, o cümlədən pravoslav aləmində geniş tanınan Ostroq monastrından gedir. Qanunun qəbul edilməsi ilə ölkə pravoslavları SPK-dan çıxacaqlar, əvəzində Monteneqro Pravoslav Kilsəsi yaradılacaq. Başqa sözlə, Monteneqro Serbiyadan dini müstəqilliyə nail olacaq. Bəzi müşahidəçilər ölkədə belə bir qanunun qəbul edilməsində ABŞ-ın barmağını görür. Onlar belə bir fakta diqqət yetirirlər ki, bu yaxınlarda ABŞ-ın beynəlxalq dini azadlıq məsələləri üzrə səfiri Sem Braunbek Monteneqroda səfərdə olmuşdur. Braunbekin Ukraynanın Rus Pravoslav Kilsəsindən ayrılmasında rolu nəzərə çarpdırılır.

Parlament qanun layihəsini srağagün müzakirə etməyə başlamışdır. Müxalifətin qanunu yenidən işləmək təklifi iqtidarı təmsil edən parlamentarların etirazı ilə qarşılanmışdır. Belə olan halda müxalifətin lideri Andriya Mandiç parlamentdə çıxış edərkən tərəfdarlarını küçə və avtomagistralları bağlamağa çağırmışdır.

Əvvəlcə ölkənin şimalında yerləşən Berane şəhərinin sakinləri küçələrə çıxıb nəqliyyatın hərəkətini dayandırdılar. Digər şəhərlərin sakinləri də bundan nümunə götürdülər. Axırda ölkənin ikinci böyük şəhəri - Nikşiç ayağa qalxdı. Paytaxt Podqoritsa da gərginlik içində idi. Etirazçılar parlament binasının ətrafında toplaşmışdılar. Hüquq mühafizə orqanları vəziyyətə müdaxilə edib onlarca adamı tutub saxladı.

Siyasi müxalifətin parlamentdə yekun səsverməni pozmaq cəhdindən sonra asayiş keşikçiləri müxalif "Demokratik cəbhə"nin istisnasız olaraq bütün deputatlarını - 22 nəfəri tutub saxlamışdır. Müxalifətin olmadığı şəraitdə hakim koalisiya təklif olunmuş düzəlişləri bir-bir rədd etdi, sonra isə yekdilliklə (45 səs) qanunu qəbul etdi.

Ölkə əhalisinin yeni qanunu sakitcə qarşılayacağı gözlənilmir. Son 15 ildə baş vermiş hadisələr belə bir təsəvvür yaratmışdı ki, vətəndaşlar hökumətin atacağı hər cür addımla barışacaq. 2006-cı ildə iqtidar referendum zamanı cüzi səs çoxluğu ilə Monteneqronu Serbiya ilə ittifaq dövlətindən çıxardı. Sonra hökumət ölkəni NATO-nun cərgəsinə qoşdu. Amma bu dəfə vəziyyəti təbii məcraya yönəltmək asan olmayacaq, çünki müxalifətçilər və narazılar eyni mövqeyi bölüşürlər. Ona görə də hakimiyyət orqanları ölkədə sabitliyi bərpa etmək üçün xeyli səy göstərməli olacaq.

## Hərbi hissədə qərargahın və təlim-məşq mərkəzinin yeni inzibati binalarının açılışı olub

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin təsdiq etdiyi Azərbaycan Ordusunun modernləşdirilməsi planına əsasən müvafiq tədbirlər davam etdirilir.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildiriblər ki, dekabrın 28-də hərbi hissələrdən birində qərargahın və təlim-məşq mərkəzinin yeni inzibati binalarının açılışı olub.

Məlumat verilib ki, mərkəz müasir və yüksək texnologiyalı simulyator qurğuları quraşdırılmış sinif, bütün kommunikasiya xətləri və digər zəruri avadanlıqla təchiz edilmiş inzibati və xidməti iş otaqlarından ibarətdir. Burada xüsusi kompüter proqramları ilə təmin olunmuş avadanlıq və trenajorlar şəxsi heyətin bilik və bacarıqlarının lazımi səviyyədə saxlanılmasına, tapşırıqlarının real döyüş şəraitinə uyğun, vaxtında və dəqiq yerinə yetirilməsi vərdişlərinin təkmilləşdirilməsinə imkan verir. Təlimatçılar tərəfindən hər bir müdavimin ixtisasına uyğun olaraq şərti tapşırıqlar qoyulur, onların tapşırığı yerinə yetirməsi prosesi elektron xəritələrdə izlənilir və qiymətləndirilir.

Müdafiə Nazirliyinin rəhbərliyi mərkəzin simulyator, eləcə də digər xidməti və inzibati otaqları ilə tanış olub.

***AZƏRTAC***

# Bakı Yeni il ərəfəsində















*Foto Fərman BAĞIROVUNDUR*

## Bəzi bölgələrdə yağış, dağlıq ərazilərdə qar yağacaq

Azərbaycanda dekabrın 29-na gözlənilən hava proqnozu açıqlanıb.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, bəzi yerlərdə duman, çiskin olacağı gözlənilir. Şimal küləyi əsəcək. Havanın temperaturu Bakıda və Abşeron yarımadasında gecə 5-7°, gündüz 10-12° isti olacaq. Atmosfer təzyiqi normadan yüksək - 765 millimetr civə sütunundan 769 millimetr civə sütununa yüksələcək, nisbi rütubət gecə 75-85, gündüz 60-70 faiz təşkil edəcək.

Sinoptiklərin tibbi-meteoroloji proqnozuna görə, dekabrın 29-30-da Abşeron yarımadasında meteoroloji amillərin zəif tərəddüdü və iqlim normasına yaxın temperatur rejimi gözlənilir ki, bu da meteohəssas insanlar üçün əsasən əlverişlidir.

Naxçıvan Muxtar Respublikasının bəzi yerlərində havanın arabir yağıntılı olacağı, dağlıq ərazilərdə qar yağacağı, gündüz əsasən yağmursuz keçəcəyi gözlənilir. Ayrı-ayrı yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 3° şaxtadan 2°-dək isti, gündüz 6-11° isti olacağı ehtimalı var.

Yuxarı Qarabağ: Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Qubadlı, Zəngilan, Laçın, Kəlbəcər, Daşkəsən, Gədəbəy rayonlarının bəzi yerlərində havanın arabir yağıntılı olacağı, qar yağacağı, gündüz əsasən yağmursuz keçəcəyi gözlənilir. Bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 3° şaxtadan 2°-dək isti, gündüz 4-9° isti olacağı proqnozlaşdırılır.

Gəncə şəhərində, Qazax, Goranboy, Tərtər, Ağdam, Füzuli, Cəbrayıl rayonlarının bəzi yerlərində yağış yağacağı, gündüz havanın əsasən yağmursuz keçəcəyi gözlənilir. Səhər ayrı-ayrı yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 0-5°, gündüz 7-12° isti olacağı bildirilir.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarının bəzi yerlərində havanın yağıntılı olacağı, dağlıq ərazilərdə qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 1° şaxtadan 4°-dək isti, gündüz 7-11° isti, dağlarda gecə 3-8° şaxta, gündüz 2-7° isti olacağı ehtimal edilir.

Mərkəzi Aran: Mingəçevir və Şirvan şəhərlərinin, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Hacıqabul, Salyan, Neftçala rayonlarının bəzi yerlərində yağış yağacağı, gündüz havanın əsasən yağmursuz keçəcəyi ehtimalı var. Ayrı-ayrı yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 1-6°, gündüz 8-13° isti olacaq.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarında arabir yağış yağacağı ehtimal edilir. Dağlarda duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 6-8°, gündüz 9-13° isti, dağlarda gecə 2-6°, gündüz 7-10° isti olacağı gözlənilir.

## DİN və Baş Prokurorluq Oqtay Gülalıyev ilə bağlı birgə məlumat yayıb

Məlumat verildiyi kimi, oktyabrın 29-da paytaxtın Nəsimi rayonunun 28 May və Puşkin küçələrinin kəsişməsində baş vermiş yol-nəqliyyat hadisəsi nəticəsində piyada, Bakı şəhər sakini Oqtay Gülalıyevin avtomobillə vurulması faktı üzrə başlanmış cinayət işi üzrə Nəsimi Rayon Polis İdarəsinin İstintaq şöbəsində istintaq tədbirləri davam etdirilir. Aparılmış istintaq-əməliyyat tədbirləri nəticəsində əldə edilmiş sübutlarla oktyabrın 29-da çağrı nömrəsi "9933" olan "A Taksi" şirkətində taksi sürücüsü kimi işləyən Kənan Abdullayevin idarə etdiyi "Hyundai Accent" markalı avtomobillə saat 17:22-də Nəsimi rayonunun 28 May və Puşkin küçələrinin kəsişməsində sola dönərkən Puşkin küçəsindəki piyada keçidi ilə yolu keçən O.Gülalıyevi ehtiyatsızlıqdan vuraraq onun ağır dərəcəli bədən xəsarəti almasına səbəb olması müəyyən edildiyindən K.Abdullayev Cinayət Məcəlləsinin 263.1-1-ci (yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarını pozma ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin sağlamlığına ağır zərər vurulmasına səbəb olduqda) maddəsi ilə təqsirləndirilən şəxs qismində cəlb edilib və barəsində "başqa yerə getməmək haqqında iltizam" qətimkan tədbiri seçilib.

Hər iki qurumun mətbuat xidmətlərinin AZƏRTAC-a daxil olan birgə məlumatında bildirilir ki, "Təhlükəsiz Şəhər" Xidmətinin müşahidə kameraları tərəfindən qeydə alınmış görüntülər Daxili İşlər Nazirliyinin mətbuat xidməti tərəfindən hadisədən dərhal sonra kütləvi informasiya vasitələrinə təqdim edilməsinə, hadisə barədə oktyabrın 30-da Bakı Şəhər Baş Polis İdarəsi tərəfindən, daha sonra hadisənin təfərrüatları və istintaqın gəldiyi ilkin nəticələrə əsasən hadisənin qəsdən törədilməməsi barədə oktyabrın 31-də Daxili İşlər Nazirliyi və Baş Prokurorluğun mətbuat xidmətləri tərəfindən ictimaiyyətə ətraflı məlumatlar verilməsinə baxmayaraq, bəzi kütləvi informasiya vasitələri və sosial şəbəkə istifadəçiləri tərəfindən qərəzli olaraq hadisənin guya qəsdən törədilməsi ilə bağlı cəmiyyətdə yanlış fikrin formalaşdırılmasına xidmət edən əsassız məlumatlar yayılıb.

Həmin məlumatlar aparılmış istintaqla sübuta yetirilmədiyindən qəti şəkildə təkzib olunur.

İstintaq zamanı müəyyən edilib ki, O.Gülalıyev hadisə yerindən tamamilə kənarda Xətai rayonu ərazisində yaşayır. O, həmin gün hadisə yerinə şəxsiyyəti istintaqa məlum olan tanışı ilə görüşmək məqsədilə gəlib, bu marşrutdan gündəlik və ya daimi olaraq istifadə etməyib. Həmçinin müəyyən edilib ki, sürücü K.Abdullayev sentyabrdan etibarən Nizami küçəsində fəaliyyət göstərən hazırlıq kursundan qonşusunun övladını saat 17:30-da götürmək üçün həmin istiqamətdə hər gün hərəkət edib.

Bundan başqa, hadisədən əvvəl təxminən 2 saat ərzində sürücü K.Abdullayevin və O.Gülalıyevin hərəkət trayektoriyaları, hadisədən sonra sürücü K.Abdullayevin O.Gülalıyevi 1 saylı Kliniki Tibbi Mərkəzə apardığı marşrut "Təhlükəsiz Şəhər" Xidmətinin kameraları, eləcə də istifadə etdikləri telefon nömrələrinin anten dairələri vasitəsilə tam müəyyən edilib. Məlumatlardan görünür ki, onlar hadisədən əvvəl müxtəlif istiqamətlərdə hərəkətdə olmuş, hərəkət istiqamətləri hadisədən əvvəl heç bir halda kəsişməmiş, sürücü tərəfindən O.Gülalıyevin güdülməsi, izlənilməsi halları müəyyən edilməyib.

Bakı Nəqliyyat Agentliyindən verilmiş məlumata əsasən həmin vaxt yaranan tıxaclar nəzərə alınmaqla sürücü K.Abdullayev zərərçəkmiş şəxsi ən optimal marşrut üzrə saat 18:16-da 1 saylı Klinik Tibbi Mərkəzə çatdırıb.

İstintaq zamanı sürücü K.Abdullayevin şəxsiyyəti, əlaqələri, ailə vəziyyəti və barəsində digər zəruri məlumatlar əməliyyat yolu ilə toplanılıb. Müəyyən edilib ki, o, 1984-cü ildə Mingəçevir şəhərində anadan olub, 2009-cu ildə işləmək məqsədilə Bakı şəhərinə gəlib. K.Abdullayev 2019-cu ilin iyunundan etibarən Bakıda taksi fəaliyyəti ilə məşğul olmağa başlayıb. Ailəlidir, bir övladı var. Əvvəllər məhkum olunmayıb.

Aidiyyəti dövlət qurumları tərəfindən aparılmış əməliyyat tədbirləri nəticəsində K.Abdullayevin həyat tərzi ilə bağlı hər hansı şübhəli məqamların, zərərçəkmiş şəxs O.Gülalıyevlə əvvəllər tanışlığının, ədavətinin olmaması müəyyən edilib, eləcə də sonuncunun hadisədən əvvəl izlənilməsi, təqib edilməsi və təzyiqlərə məruz qalması barədə yayılmış informasiyalar, xüsusilə O.Gülalıyevin olduğu yerin hər hansı kənar şəxs vasitəsilə telefon və ya internet vasitəsilə sürücü K.Abdullayevə bildirilməsi fərziyyəsi istintaqla təsdiq olunmayıb.

Bu və digər hallar üzrə, o cümlədən zərərçəkmiş şəxsə göstərilmiş tibbi yardımın qanunvericiliyin tələblərinə uyğunluğunun yoxlanılması hissəsində istintaq tədbirləri davam etdirilir.

Cinayət işi üzrə tam, hərtərəfli və obyektiv istintaq aparılmaqla təqsirkar şəxsin məhkəmə məsuliyyətinə verilməsi təmin ediləcək.

## "Azercell" Azərbaycanda ISO/IEC 27001 Beynəlxalq İnformasiya Təhlükəsizliyi Standartına uyğunluq sertifikatını alan ilk mobil operator oldu

Ölkənin rəqəmsal həllər təqdim edən lider mobil operatoru "Azercell Telekom" MMC bu ili növbəti uğura imza ataraq başa vurur.

Bu dəfə "Azercell" dünya üzrə yüzdən artıq ölkədə sertifikasiya xidmətləri göstərən Norveçin DNV GL şirkəti tərəfindən ISO/IEC 27001 sertifikatına layiq görülüb. Fəaliyyətində şəffaflığın qorunub saxlanmasını, müştəri məlumatlarının təhlükəsizliyini və məxfiliyinip təmin etməyi prioritet hesab edərək "Azercell"ölkədə bu sertifikata layiq görülən ilk mobil operator oldu. Belə ki, müstəqil audit yoxlamaları zamanı məlumatların təhlükəsizliyini təmin etmək məqsədilə "Azercell"in tətbiq etdiyi İnformasiya Təhlükəsizliyi İdarəetmə Sisteminin beynəlxalq standartlara cavab verdiyi təsdiq edilib. ISO/IEC 27001 sertifikatı "Azercell"də məlumatların məxfiliyinin, bütövlüyünün və əlçatanlığının yüksək səviyyədə qorunmasını bir daha sübut edir.




Qeyd edək ki, ISO/IEC 27001 standartı Beynəlxalq Standartlaşdırma Təşkilatı (ISO) və Beynəlxalq Elektrotexnika Komissiyası (IEC) tərəfindən hazırlanıb. Standarta uyğunluq sertifikatı yalnız ISO/IEC 27001-nin tələblərini tam qarşılayan, informasiya təhlükəsizliyi risklərini optimal idarə edən, davamlı olaraq audit yoxlamaları həyata keçirən və qanunvericilik üzrə qoyulan tələblərə uyğun məlumat təhlükəsizliyini təmin edən şirkətlərə təqdim edilir.

Xatırladaq ki, ISO (Beynəlxalq Standartlaşdırma Təşkilatı) ümumdünya milli standartlar qurumları (ISO üzv qurumları) federasiyasıdır. İndiyədək federasiya tərəfindən idarəçilik, texnologiyalar və biznes sahəsində əmtəələrə, xidmətlərə və müsbət təcrübələrə dair minlərlə standartlar müəyyənləşdirilib.

***"Azərbaycan"***


## B İ L D İ R İ Ş

"Azərbaycan" qəzetinin 07 və 08 noyabr 2019-cu il tarixli nömrələrində və Dövlət satınalmalarının vahid internet Portalında **(https://www.etender.gov.az)** Azərbaycan Respublikasının Dövlət Neft Fondu tərəfindən malların (işlərin, xidmətlərin) satın alınması üçün keçirilən elektron satınalmada (eTender) Təhlükəsizlik divarının (Palo Alto Networks NGWF) lisenziyasının və texniki dəstək xidmətinin 1 il müddətinə uzadılmasının satın alınması üzrə **"R.İ.S.K. Elmi İstehsalat Şirkəti" QSC**, Çap və nüsxələmə avadanlıqlarının katric, toner və digər ehtiyat hissələrinin satın alınması üzrə **"Xeropc" MMC,** İnformasiya texnologiyaları sistemlərinin üzərində çalışan virtual platforma üçün vendor texniki dəstək xidmətinin 1 il müddətinə uzadılmasının satın alınması üzrə isə **"Bakinity Distribution" MMC qalib olmuşdur.**

Qalib şirkətlərlə 25 dekabr 2019-cu ildə hər LOT üzrə ayrıca müvafiq satınalma müqavilələri imzalanmışdır.

***Tender komissiyası***


## Atəşkəs rejimi 24 dəfə pozulub

Ermənistan silahlı qüvvələrinin bölmələri sutka ərzində cəbhənin müxtəlif istiqamətlərində snayper tüfənglərindən də istifadə etməklə atəşkəs rejimini 24 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan Respublikasının Noyemberyan rayonunun Şavarşavan, Voskevan kəndlərində və adsız yüksəkliklərdə, İcevan rayonunun Berkaber, Krasnoselsk rayonunun Cil kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Azərbaycan Respublikasının Qazax rayonunun Fərəhli, Quşçu Ayrım, Aşağı Əskipara, Qızılhacılı, Gədəbəy rayonunun Göyəli, Zamanlı kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Xocavənd rayonunun işğal altında olan Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qaraxanbəyli, Aşağı Seyidəhmədli, Qorqan, Horadiz kəndləri yaxınlığında yerləşən mövqelərdən də ordumuzun mövqelərinə atəş açılıb.

Qəzetin daim yenilənən rəsmi internet ünvanı:
www.azerbaijan-news.az


## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Ali Məhkəməsinin kollektivi Beyləqan Rayon Məhkəməsinin hakimi

**NƏSRULLAH ƏLİYEVİN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.



**BAŞ REDAKTOR**

**Bəxtiyar SADIQOV**

**Ünvan**



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*

**e-mail:**
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 432-37-68, |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 538-97-96, | Humanitar siyasət şöbəsi | - 538-56-60, 539-63-82 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-72-39, 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

**Qeydiyyat nömrəsi 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir**

**Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir**

**Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır**

***Gündəlik qəzet***

**Tiraj 8895**
**Sifariş 4339**
**Qiyməti 40 qəpik**